Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

11 OKTYABR 2019-cu il

№ 182 (4080)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# TÜRKİYƏNİN SURİYADA ANTİTERROR ƏMƏLİYYATINDAN SONRA QARABAĞDA OXŞAR ƏMƏLİYYATLAR - ERMƏNİSTAN XİN-in NARAHATLIĞININ MOTİVİ...

■ səh. 5 ■

İrəvanın sülh prosesini açıq-aşkar ləngitdiyi tezisi dünya rəyində hakim mövqeyə keçir... ■ səh. 9 ■

Gürcüstan Patriarxı bizim Şeyxə hansı xəritələrdən danışıb - tarixçilərimizin reaksiyası... ■ səh. 10 ■

Şimali Suriyada Türkiyənin əməliyyatları nə ilə nəticələnəcək - bəziləri ən pis olmaqla çox qorxulu proqnozlar var... ■ səh. 7 ■

Radikalların 8 oktyabr piketində polisin də davranışları nəzərlərdən qaçmadı... ■ səh. 4 ■

2020-ci ildə manat-dollar nisbətinin 1.70 civarında saxlana biləcəyi barədə proqnozlar nə dərəcədə əsaslıdır... ■ səh. 13 ■

Böhtan-təhqiri cinayət tərkibli əməllər sırasından çıxaracaq qanunun müzakirəsi deyəsən reallaşır... ■ səh. 11 ■

Universitetlərimizin bölgə filialları barədə "özlərini doğrultmurlar" iddiası... ■ səh. 14 ■

Marşrut sürücüləri sükan arxasında siqaret çəkməyi hələ tərgitməyiblər ■ səh. 15 ■



■ səh. 8 ■

## İlham Əliyevlə Qaxariya Gürcüstan-Azərbaycan dostluğunun düşmənlərini məyus etdilər



Gürcüstan Baş nazirinin Paşinyandan əvvəl İlham Əliyevlə görüşə gəlməsinin əsl səbəbləri və qondarma erməni versiyaları... ■ səh. 3 ■



İsa Qəmbərin tərəfkeşliyi, Müsavatda yenidən «yarpaq tökmə» və prosesdə Əli Kərimlinin maraqları... ■ səh. 5 ■

Türkiyənin Suriyada hərbi əməliyyatları ermənilərin «Sevr» istəyinin də üzərindən birdəfəlik xətt çəkir ■ səh. 6 ■

■ səh. 3 ■ Ermənistan Suriyada təzə "genosid oyunu"na başlayır...



■ səh. 4 ■ Piket meydanında asayiş mühafizəsinə ilk dəfə Azərbaycanın qadın polisləri də cəlb olundu



■ səh. 11 ■ "Azərbaycana testi kim gətirib" qalmaqalı - Firudin Cəlilovun iddialı araşdırması aləmi qatdı...



■ səh. 13 ■ Bələdiyyələr "srokun" çıxmasına iki ay qalmış vergi məsələsində fəallaşıblar, xeyirdimi...



■ səh. 15 ■ Bu məbləğdə cərimələrdən sonra ictimai yerlərdə siqaret çəkməyə dəyərmi...



## Prezident İlham Əliyev Türkiyənin Təhsil nazirini qəbul edib

**Prezident İlham Əliyev oktyabrın 10-da Türkiyə Respublikasının Təhsil naziri Ziya Selçukun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev deyib ki, Türkiyə-Azərbaycan əlaqələri bütün sahələrdə ən yüksək zirvədədir: "Elə bir sahə yoxdur ki, biz o sahədə əməkdaşlıq etməyək. O cümlədən sizin rəhbərlik etdiyiniz sahə də həm bu gün üçün, həm də gələcək üçün çox önəmlidir ki, gələcək nəsillərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə alsınlar, bilikli savadlı olsunlar və gələcəkdə ölkələrimizin inkişafında fəal olsunlar.

Bildiyiniz kimi, bir neçə gündən sonra Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə Görüşü keçiriləcək. Biz bu görüşə ciddi hazırlaşırıq və əminəm ki, qəbul ediləcək qərarlar türkdilli dövlətlərin birliyini daha da möhkəmləndirəcək. Sizi bir daha salamlayıram. Xoş gəlmisiniz".

Türkiyənin Təhsil naziri Ziya Selçuk deyib ki, Azərbaycan Prezidentinin Türkiyə vətəndaşları üçün viza rejiminin ləğvi barədə qərarı Türkiyədə böyük bir sevinc hissi yaradıb.

Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla onu qardaşlıq münasibətlərinin bağladığını deyərək qeyd edib ki, Azərbaycanla Türkiyə arasında böyük sərvətimiz olan dostluq və qardaşlığımızı möhkəm iş birliyinə çevirməyə nail olmuşuq. Prezident İlham Əliyev bildirib ki, dünya miqyasında Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın ölkələr yoxdur.

Dövlət başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə keçən il Bakıda hərbi paradın keçirildiyini, Azərbaycan və Türkiyə hərbçilərinin çiyin-çiyinə Bakının mərkəzində təntənəli keçid etdiklərini xatırladaraq, xalqlarımızın bunu böyük fəxr hissi ilə izlədiyini bildirib.

Görüşdə ali və peşə təhsili sahəsində əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

## Prezident İlham Əliyevin sahibkarlara ünvanlanan müraciətinə özəl sektordan cavab...

**Prezident İlham Əliyevin oktyabrın 8-də bir qrup məcburi köçkünlə keçirilən görüşündə sahibkarlara ünvanlanan müraciətinə Azərbaycanın özəl sektorundan dərhal cavab gəlib.**

"Trend"in məlumatına görə, "Kristal Abşeron MTK" Prezident İlham Əliyevin məcburi köçkünlər üçün salınan "Qobu Park-2" yaşayış kompleksinin açılışında özəl sektora, Azərbaycanda fəaliyyət göstərən şirkətlərə ünvanlanan çağırışından irəli gələrək məcburi köçkünlər üçün yeni binanın inşasını öz üzərinə götürüb. Yeni layihəyə, həmçinin "Kontakt Home" mağazalar şəbəkəsi və "Azəraqrartikinti" Açıq Səhmdar Cəmiyyəti də qoşulub. Özəl şirkətlərin sosial məsuliyyət öhdəliyindən irəli gələrək reallaşacaq binada 50 mənzil "Kristal Abşeron MTK", 10 mənzil "Kontakt Home" mağazalar şəbəkəsi, 10 mənzil isə "Azəraqrartikinti" Açıq Səhmdar Cəmiyyəti tərəfindən inşa olunacaq.

Xatırladaq ki, Prezident İlham Əliyev "Qobu Park-2" yaşayış kompleksinin açılışı zamanı çıxışında Azərbaycan şirkətlərinə, özəl sektora həmrəylik və sosial məsuliyyət nümayiş etdirərək ağır vəziyyətdə yaşayan məcburi köçkünlər üçün yeni binaların inşası prosesinə dəstək olmaqla bağlı çağırış edib. Dövlət tərəfindən özəl sektora daim dəstək göstərildiyini, kreditlər ayrıldığını deyən Prezident İlham Əliyev sahibkarları daha da məsuliyyətli olmağa və məcburi köçkünlər üçün mənzillərin inşasında fəal iştirak etməyə çağırıb. Dövlət başçısı bundan sonra Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsinə qeyd olunan istiqamətdə müraciətlərin sayının artacağına əminliyini də bildirib.

Qeyd edək ki, hazırda dövlət tərəfindən həyata keçirilən "Qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin edilməsi" layihəsi üzrə məcburi köçkünlər üçün yeni binalar, yaşayış kompleksləri inşa olunmaqdadır. Bu günədək məcburi köçkünlər üçün 100-dən çox qəsəbə salınıb.

Xatırladaq ki, 2018-ci ildə istifadəyə verilən "Qobu Park-1" və ötən gün istifadəyə verilən "Qobu Park-2" yaşayış kompleksi, eyni zamanda hazırda tikintisi reallaşan "Qobu Park-3" yaşayış kompleksi özəl sektorun hesabına salınıb. Bu yaşayış komplekslərinin inşası Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilir.

# Prezident İlham Əliyev Türkmənistanda MDB zirvəsində...

**Oktyabrın 10-da Prezident İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Türkmənistana işgüzar səfər edib.**

Aşqabad beynəlxalq hava limanında Prezident İlham Əliyevi MDB İcraiyyə Komitəsinin sədri-icra katibi aparatının rəhbəri Sergey Burutin, Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Esenmurad Orazgeldiyev və digər yüksək vəzifəli şəxslər qarşılayıb.

Daha sonra Aşqabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olub.




# Vilayət Eyvazov Avstriyanın nəqliyyat, innovasiya və texnologiya nazirini qəbul edib

**Oktyabrın 10-da Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov ölkəmizdə səfərdə olan Avstriyanın Federal nəqliyyat, innovasiya və texnologiya naziri Andreas Rayxhardtın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən "Bakı-Xəbər"ə verilən məlumata görə, geniş potensiala malik ikitərəfli münasibətlərin dinamik inkişaf etdiyini xatırladan Daxili İşlər naziri onlara ölkə Prezidentinin rəhbərliyi altında respublikamızda həyata keçirilən köklü hüquqi-demokratik və sosial-iqtisadi islahatlar, cinayətkarlıqla mübarizə, sabitliyin bərpası, kriminogen durumun nəzarətə götürülməsi, ictimai qaydanın qorunması, həmçinin, DİN-in əsas hüquq və vəzifələri, o cümlədən, yol hərəkəti təhlükəsizliyinin təmini barədə məlumat verib.

Azərbaycan-Avstriya münasibətləri barədə danışan nazir V.Eyvazov iki ölkənin Daxili İşlər nazirlikləri arasında sıx işgüzar əlaqələrin mövcudluğunu, bu əməkdaşlığın beynəlxalq hüquqi sənədlər əsasında həyata keçirildiyini qeyd edib. Avropa ölkələrinin polis təşkilatları arasında Avstriya DİN-in ölkəmizin analoji qurumu ilə ikitərəfli əlaqələr quran ilk orqan olduğunu diqqətə çatdıran cənab Vilayət Eyvazov polis təlimi və ixtisasartırma sahəsində iki mühüm sənədin imzalandığını, qarşılıqlı səfərlərin əməkdaşlığın daha da dərinləşməsinə təkan verdiyini xüsusi vurğulayıb.

Cənab Andreas Rayxhardt səmimi qəbula və ətraflı məlumata görə minnətdarlıq edərək, ölkəmizin sürətli inkişafından, Bakının dünyanın ən gözəl və ən təhlükəsiz şəhərlərindən biri olmasından, burada özünü çox rahat və təhlükəsiz hiss etməsindən məmnunluğunu ifadə edib. O, bütün sahələrdə, o cümlədən, yeni informasiya texnologiyalarının tətbiqi, hüquqmühafizə fəaliyyəti sahəsində təcrübə və məlumat mübadiləsinin əhəmiyyətini nəzərə çatdıraraq, ikitərəfli əlaqələrin daha da genişlənməsinə öz töhfələrini verəcəyini bildirib.

Səmimi və işgüzarlıq şəraitində keçən görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə olunub.

Avstriyanın respublikamızdakı, ölkəmizin isə Avstriya Respublikasındakı fövqəladə və səlahiyyətli səfirləri - Bernd Bayerl və Qalib İsrafilov qəbulda iştirak ediblər.

# Rusiya Türkiyəyə Bəşər Əsədlə bağlı təklif verdi...

**Türkiyənin Suriyanın şimalında "Barış Pınarı" (Sülh bulağı) əməliyyatına başlamasının ardından Rusiya Dəməşqlə Ankara arasında vasitəçilik təklif edib.**

Baki-xeber.com xəbər verir ki, bu barədə Rusiya xarici işlər naziri Sergey Lavrov açıqlama verib.



Lavrov Moskvanın Suriya ilə Türkiyə arasında dialoq başladılması üçün hər iki ölkəyə çağırış edəcəyini bildirib. "Türkiyənin sərhəd təhlükəsizliyilə əlaqədar narahatlıqlarını anlayırıq. Türkiyənin Suriyanın şimal-şərqindəki əməliyyatı ABŞ-ın bu bölgədə atdığı addımların nəticəsidir" - Lavrov deyib.

# Gürcüştan Baş nazirinin Paşinyandan əvvəl İlham Əliyevlə görüşə gəlməsinin əsl səbəbləri və qondarma erməni versiyaları...

**Məlum olduğu kimi, Giorgi Qaxariya Gürcüstanın Baş naziri təyin olunandan sonra ilk səfərini Azərbaycana edib. Belə ki, o, ölkəmizə səfəri zamanı Bakıda Prezident İlham Əliyevlə danışıqlar aparıb. Tərəflər iki ölkə arasında dostluq və qardaşlıq, strateji tərəfdaşlıq münasibətlərinin mövcud olduğunu vurğulayıblar.**



## *Məhəmməd Əsədullazadə: "Azərbaycan Gürcüstan iqtisadiyyatının inkişafında bu və ya digər dərəcədə mühüm rol oynayır"*

Bu arada Ermənistan mətbuatı Gürcüstanın yeni Baş nazirinin ilk səfərini Azərbaycana etməsini qısqanclıqla qarşılayır. Onlar bu görüşün əsl səbəblərini qeyd etmək əvəzinə, uydurma versiyalarla çıxış edirlər. İddia edirlər ki, guya Qaxariya ilk səfərini Azərbaycana etsə də, bu, qardaşlıq münasibətlərinin əlaməti deyil. Bu, ortada ciddi problemlərin olduğunu göstərir. Bu səbəbdən ilk səfəri Bakıya edib. Qondarma arqumentləri budur ki, məhz səfər günü Gürcüstanın Katolikos-Patriarxı II İlya Keşikçidağ (David Qareci) monastır kompleksi ilə bağlı Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadəyə müraciət edib.

Qeyd edək ki, Qaxariya oktyabrın 15-də Ermənistana, oktyabrın sonunda isə Türkiyəyə səfər edəcək. Bu da Ermənistanı qıcıqlandırır. Əslində isə Gürcüstan Baş nazirinin ilk səfərini Bakıya etməsi Azərbaycanın bu ölkə üçün önəmi ilə əlaqədardır. Heç də erməni mətbuatının yazdığı kimi deyil. Məsələ ondadır ki, Azərbaycan Gürcüstanın başlıca iqtisadi tərəfdaşıdır. Bu ölkəyə ən çox sərmayə qoyan ölkə Azərbaycandır. Azərbaycanın həyata keçirdiyi böyük enerji, nəqliyyat və digər layihələrindən qonşu ölkə böyük gəlir əldə edir. Ümumilikdə, Azərbaycan faktoru Gürcüstanın dövlət büdcəsinin, ümumdaxili məhsulun formalaşmasında mühüm rol oynayır. Azərbaycan Gürcüstanı sərfəli qiymətlərlə qazla təmin edir və s. Bütün bunlardan çıxış edərək, təbii ki, Gürcüstanın yeni Baş nazirinin ilk səfərini Azərbaycana etməsi ölkəmizə regionda verilən önəmdən irəli gəlir.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, erməni tərəfi Azərbaycanın regionda artan nüfuzunu həzm edə bilmir: "Gürcüstanın yeni Baş naziri G.Qaxariyanın xarici səfərini ilk olaraq ölkəmizə etməsi ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğunu təsdiqləyir. Daim strateji tərəfdaş olan ölkələr bu xəttə əməl edirlər. İki ölkə arasında siyasi-iqtisadi və enerji əlaqələri, həmçinin, beynəlxalq əhəmiyyətli nəqliyyat layihələri var. Buna görə də iki dövlət bir-birilə əməkdaşlıq edərək bunu strateji səviyyədə saxlamağa borcludurlar. Qaxariya məhz iki ölkə arasında dost və tərəfdaşlığın daha da inkişaf etdirilməsi üçün ölkəmizə gəldi. Rəsmi Tiflislə Bakı arasında Azərbaycan baxımından heç bir problem yoxdur. Ermənistan iki ölkə arasında əməkdaşlığın inkişafından narahatdır. O üzdən, erməni mətbuatı uydurma versiyalarla çıxış edir. Müxtəlif yollarla bu səfərin üzərinə kölgə salmağa çalışırlar. Bu səfər hansısa problemlərin həlli ilə bağlı yox, əməkdaşlığın daha da inkişaf etdirilməsi məqsədilə olub.

### *"Ermənistan iki ölkə arasında əməkdaşlığın inkişafından narahatdır"*

Hesab edirəm ki, Keşikçidağla bağlı məsələ iki ölkə arasında münasibətlərin yüksək səviyyədə olmasına xələl gətirə bilməz. İki ölkə coğrafi baxımından daha da sıx əməkdaşlığa məcburdur. Gürcüstanda hansı qüvvələrin hakimiyyətdə olmasından asılı olmayaraq, bu ölkə rəsmiləri Azərbaycanın önəmini nəzərə alırlar. Çünki Azərbaycan Gürcüstan iqtisadiyyatının inkişafında bu və ya digər dərəcədə mühüm rol oynayır".

***Vidadi ORDAHALLI***

# Ermənistan Suriyada təzə "genosid oyunu"na başlayır...



**"Türkiyə Suriyanın şimalında terrorçulara qarşı əməliyyata başlayandan ermənilərin yuxusu yenidən qaçıb.**

Əvvəlcə ermənilərin XİN-i bəyanat yayaraq Türkiyənin antiterror hərəkətini guya təcavüz kimi qələmə verməyə çalışdı, guya humanitar fəlakətlərin ola biləcəyindən saxta haray çəkdilər, dünyanı bu "təcavüzü"dayandırmağa səslədilər... Baxın, dünya bunların təcavüzündən danışır, bunlar isə abır-həya deyilən şeydən erməni millətinə pay düşmədiyini bir daha göstərməkdən utanmırlar".

Bu sözləri özünün facebook səhifəsində politoloq, "Bakı-Xəbər" qəzetinin Baş redaktoru Aydın Quliyev yazıb.

"Bəlli idi ki, ermənilər təzə oyun planlayıblar" yazan A.Quliyev daha sonra diqqəti ermənilərin bugünkü hay-həşirində çox ciddi bir nüansa çəkərək bildirir:"Bu da sübut. XİN-in ardından başlayıblar ki, guya Suriyanın şimalında yaşayan ermənilər atəş altına düşüblər və sübut üçün Əl-Abyad şəhərinin hansısa bucağında yaşayan 16 erməni ailəsini göstərirlər. Elə məlumatlar yayırlar ki, sanki ermənilər əsasən Suriyanın bu gün Türkiyənin əməliyyat keçirdiyi bölgələrində yaşayırlar. Yəqin bir müddət sonra Suriyada türklərin guya müasir erməni genosidi etdiklərinə dair XXI əsr nağılları uyduracaqlar..."

Həqiqətən düşündürücü məqamdır və yüzillərin təcrübəsi nəzərə alınarsa, çox realdır...

***Baki-xeber.com***

# Azərbaycan XİN "Glob-Press" agentliyinin baş redaktorunun adını Qarabağ üzrə "qara siyahı"dan çıxardı

**Polşa vətəndaşı, "Glob-Press" agentliyinin baş redaktoru Vlodimej Kjijanovski Xarici İşlər Nazirliyinə məktubla müraciət edərək, adının "Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfər etmiş xarici ölkə vətəndaşlarının siyahısı"ndan çıxarılmasını xahiş edib.**

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən baki-xeber.com- a verilən məlumata görə, məktubunda Vlodimej Kjijanovski Azərbaycan Respublikasının beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyü və suverenliyi, eləcə də ölkəmizin qanunlarına hörmət etdiyini bəyan edir və işğal edilmiş ərazilərə sözügedən səfəri ilə heç bir halda ölkəmizin ərazi bütövlüyü və suverenliyini şübhə altına almaq niyyətində olmadığını bildirir.

Həmçinin müraciətində o, səfərin törədə biləcəyi nəticələr barədə məlumatsız olduğunu və gələcəkdə bu cür qanunsuz səfərdən çəkinəcəyini qeyd edib.

Polşa Respublikasının vətəndaşının müraciəti müvafiq qaydada nəzərdən keçirilib və adının arzuolunmaz şəxslər siyahısından çıxarılmasına dair qərar qəbul edilib.

# Radikalların 8 oktyabr piketində polisin də davranışları nəzərlərdən qaçmadı...

**Milli Şuranın oktyabrın 8-də Bakı Şəhər İcra Hakimiyyətinin inzibati binasının yaxınlığında keçirdiyi piketdə polislər nümunəvi davranış sərgilədilər. Halbuki, piket iştirakçılarının bir çoxu polisi provokasiyaya cəlb etməyə çalışırdı. Bu məqsədlə müxtəlif qanundankənar hallara, təxribatlara əl atırdılar.**




### *Aydın Quliyev: "Həmin piket saatlarında polis üçün müəyyən sınaq məqamları var idi və asayiş keşikçiləri sınaqdan ləyaqətlə çıxdı"*

### *Elçin Mirzəbəyli: "Polis həm peşəkarlığını, həm də yüksək mədəniyyət nümunəsini ortaya qoydu"*

Piketə təxribat niyyəti ilə gələn insanlar da vardı. Bir qrup şəxs ictimai asayişi pozmağa, piketin təyin edildiyi yerdən kənarda razılaşdırılmamış mitinq keçirməyə cəhd edirdi. Onların məqsədi o idi ki, bu kimi təxribatlarla polisi zorakılığa sövq etsinlər. Daha sonra bundan siyasi məqsədlər üçün istifadə etsinlər. Bütün bunların qarşısını polis işçiləri yüksək peşəkarlıqla aldı. Polis nümunəvi davranış ortaya qoyaraq öz peşə borcunu yerinə yetirdi. Polislər piket iştirakçılarını asayişi, qanunu pozmamağa çağırırdılar. Piketdən çəkilən kadrlara baxanda da aydın şəkildə görünür ki, polislər tərəfsiz olaraq həm öz peşə borcunu yerinə yetirdilər, həm də vətəndaşlara münasibətdə nümunəvi bir davranış ortaya qoydular. Ona görə də polislərin vətəndaşlarla davranışı cəmiyyətdə insanlar arasında müsbət təəssürat yaradıb.

Maraqlıdır, bəs ekspertlər bütün bunları necə dəyərləndirirlər?

Sözügedən məsələni sosial şəbəkədəki "Facebook" səhifəsində şərh edən "Bakı-Xəbər" qəzetinin baş redaktoru, politoloq Aydın Quliyevin sözlərinə görə, 8 oktyabr piketində polis sınaqdan ləyaqətlə çıxdı: "Əslində, "Milli Şura" adlanan qurumun 8 oktyabrda icazəli keçirdiyi piket MŞ-nin özü və hakimiyyət üçün heç bir sınaq xarakteri daşımırdı. Hakimiyyətin illərdən bəri çox nəhəng etiraz aksiyalarını uğurla idarə etməkdə böyük təcrübə sahibi olduğunu nəzərə alsaq, belə xırda-xuruş piketlərin ona problem yaratmaq gücündə olmadığına əmin ola bilərik. "Milli Şura" üçün də sınanılası bir şey yox idi. Nəzərə alsaq ki, MŞ neçə illərdir heç bir nəticəsi olmayan uğursuz aksiyalar keçirmək cəhdlərini özünün mövcudluq üsuluna çevirib, onun da hansısa sınaq qarşısında qaldığını düşünməyə ehtiyac yoxdur.

Ancaq həmin piket saatlarında polis üçün müəyyən sınaq məqamları var idi və asayiş keşikçiləri sınaqdan ləyaqətlə çıxdı. Belə ki, piketçilərin əsas planlarından biri polisin özünü təxribata çəkmək, onu zorakılıqlara sövq etmək və ortaya çıxan nəticələr üzərində siyasət qurmaq idi. Alınmadı.

Polislər öz qanuni səlahiyyətləri çərçivəsində asayişin qorunması və piketçilərlə sivil zərərsizləşdirici davranışların arasında balansı unikal şəkildə qoruya bildi".

Məsələyə münasibət bildirən politoloq Elçin Mirzəbəylinin sözlərinə görə, Azərbaycan polisi hər zaman asayişi qorumağı və vətəndaşların maraqlarını müdafiə etməyi hər şeydən üstün tutub: "Son piketdə də bir daha bunun şahidi olduq. Polis həm peşəkarlığını, həm də yüksək mədəniyyət nümunəsini ortaya qoydu. Həmin aksiyada aşırı dərəcədə radikal fikirlər səsləndirənlər oldu.

Hətta təhqirlərə yol verən şəxslər oldu. Bütün bu təxribatlara baxmayaraq, polis özünün təmkinli davranışları ilə onlara, əslində, əsl azərbaycanlı obrazının necə olmalı olduğunu nümayiş etdirdi. Əsl vətəndaş mövqeyinin necə olmalı olduğunu əyani şəkildə göstərdi. Bu baxımdan hesab edirəm ki, bu davranış həmin şəxslərə, xüsusən də 50 nəfəri idarə edə bilməyən insanların özünə belə nümunə olmalıdır. O baxımdan polisin davranışını yüksək qiymətləndirirəm".

***Vidadi ORDAHALLI***

# Piket meydanında asayiş mühafizəsinə ilk dəfə Azərbaycanın qadın polisləri də cəlb olundu

**Məlum olduğu kimi, "Milli Şura" adlandırılan qurum oktyabrın 8-də şəhərin mərkəzində icazəli piket keçirdi. "Milli Şura"ya BŞİH-nin yaxınlığında 50 nəfərdən ibarət heyətlə, qanunda nəzərdə tutulmuş qaydada piket keçirməyə etiraz edilməsə də, piketçilər öz xislətlərindən əl çəkməyərək yenə də təhqirlərindən, qanunları pozmaqdan qalmadılar.**




### *Şəmsəddin Əliyev: "Xanım polislər son ana qədər öz təmkinlərini qorudular, səbr göstərdilər və asayişin təmin olunmasına töhfələrini verdilər"*

Piketdə iştirak edənlər burada təxribatçı çağırışlar, fikirlər bildirməkdən çəkinmədilər. Hətta burada piketçilər tərəfindən polislə qarşıdurmaya cəhdlər də edildi.

Bilirik ki, Əli Kərimli və onun ətrafında olan radikal qüvvələr dəfələrlə müxtəlif tədbirlərdə, piketlərdə polislə qarşıdurmalar yaratmağa cəhdlər ediblər, polisi təxribata çəkmək istəyiblər. Lakin, həmişə olduğu kimi, onların polislə qarşıdurma yaratmaq cəhdləri alınmayıb, polis öz vəzifəsini Azərbaycan qanunlarına uyğun şəkildə həyata keçirib, sona qədər səbr nümayiş etdirərək sabitliyin, asayişin qorunmasına nail olub.

"Milli Şura"nın sonuncu piketində müşahidə edilən məqamlardan biri piket zamanı asayişin qorunmasına qadın polislərin də cəlb edilməsi idi ki, qadın polislər piketdə iştirak edən həmcinsləri ilə, sözün həqiqi mənasında, səbrlə, nəzakətlə davrandılar. Baxmayaraq ki, piketçi qadınlar öz çağırış və qanunazidd davranışları ilə qadın polisləri təxribata çəkmək istəyirdilər, amma, qeyd edildiyi kimi, buna nail ola bilmədilər.

Məsələni şərh edən "Polisə Dəstək" İctimai Birliyinin sədri Şəmsəddin Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, qadın polislərin piket zamanı asayişin təmin edilməsinə, sabitliyin qorunmasına cəlb edilməsi çox müsbət haldır. Onun sözlərinə görə, çox zaman piketlərdə radikal müxalifətdən olan qadın iştirakçılar kişi polislərdən haqsız narazılıqlar edirdilər ki, kişi polislər onların qollarından tutur, onlara toxunur və s.

Qadın polislərin də kişi polislərlə birgə piket zamanı sabitliyi, asayişi tam olaraq qoruduğunu deyən Ş.Əliyev hesab edir ki, qadın polislər piketçilərlə səbrlə, təmkinlə, humanistcəsinə davrandılar. "Məlumatınız olsun ki, xanımlar da Daxili İşlər Nazirliyinin Polis Akademiyasının müdavimi kimi hüquq-mühafizə orqanlarında xidmət göstərirlər. Qadın polislərin təhlükəsizliyin təmin olunmasına cəlb edilməsi bu sahədə həyata keçirilən demokratik islahatların bariz nümunəsidir. Bu cür piketlərdə, sərbəst toplaşma azadlığından sui-istifadə edən qüvvələrin keçirdiyi toplantılarda kişi polislərin qadın piketçilərə qarşı münasibəti radikal qüvvələr tərəfindən düzgün qiymətləndirilmirdi, hətta asayişi təmin edən polislərin davranışları şişirdilir, düzgün olmayan şəkildə təqdim edilirdi. Guya ki, kişi polislər onlarla düzgün rəftar etmirdilər. Təbii, bu iradlar tamamilə haqsız iradlar idi və həqiqəti əks etdirmirdi. Polislər sabitliyi, asayişi qoruyur, hər hansı bir qarşıdurmanın baş verməməsi üçün öz vəzifələrini yerinə yetirirlər. Ancaq son zamanlar artıq qadın polislər piketlərdə asasyin qorunmasında iştirak edirlər. Bu təcrübə Avropa ölkələrində də var. Polis qadınların piketdəki fəaliyyəti yüksək dəyərləndirilməlidir. Onların piketdə iştirak edən qadınlarla rəftarlarında heç bir kobudluq halları baş vermədi, qadın polislər onlarla nəzakətlə, səbrlə, humanistcəsinə davrandılar. Polis qadınların piket zamanı asayişin təmin edilməsində nümayiş etdirdikləri davranış çox nümunəvi oldu. Sərbəst toplaşmaq azadlığından sui-istifadə edərək piket keçirənlər arasında olan zərif cinsin nümayəndələri nə qədər qadın polisləri təxribata çəkmək istəsələr də, buna nail ola bilmədilər. Xanım polislər son ana qədər öz təmkinlərini qorudular, səbr göstərdilər və asayişin təmin olunmasına töhfələrini verdilər".

### *"Qadın polislərin təhlükəsizliyin təmin olunmasına cəlb edilməsi bu sahədə həyata keçirilən demokratik islahatların bariz nümunəsidir"*

Ş.Əliyev hesab edir ki, sərbəst toplaşma azadlığından sui-istifadə edən şəxslərin dövlətə, hökumətə, hətta polislərin özlərinə qarşı işlətdikləri nalayiq sözlərə belə polislər təmkinlə yanaşdılar və sonacan öz vəzifələrini layiqincə yerinə yetirdilər.

***İradə SARIYEVA***

**Ermənistan Türkiyənin Suriyada hərbi əməliyyat keçirməsini pisləyib. Ermənistan Xarici İşlər Nazirliyinin yaydığı məlumatda bildirilir: "Ermənistan Türkiyənin Suriyanın şimal-şərqinə hərbi müdaxiləsini qınayır. Bu, regional təhlükəsizliyin pisləşməsinə, mülki əhali arasında itkilərə, məcburi köçlərə və nəticədə yeni humanitar fəlakətə səbəb olacaq. Xüsusilə milli və dini azlıqlar üçün narahatverici situasiya yaranır".**



# Türkiyənin Suriyada antiterror əməliyyatından sonra Qarabağda oxşar əməliyyatlar - Ermənistan XİN-in narahatlığının motivi...

## *Zamin Axundov: "Ermənistan anlayır ki, ona qarşı da antiterror əməliyyatına başlamaq üçün kifayət qədər hüquqi əsas var"*

Baş nazir Nikol Paşinyan da Suriyadakı situasiyadan "narahat" olduğunu deyib: "Ermənistan Türkiyənin Suriyaya hərbi müdaxilə aktını qınayır. Bizim dəyərləndirməmizə əsasən, bu fəaliyyət Suriyada humanitar böhranı daha da dərinləşdirəcək. Beynəlxalq ictimaiyyəti bu qanunsuz fəaliyyəti dayandırması üçün tədbir görməyə, milli və dini azlıqların hüquqlarını müdafiəyə çağırırıq. Ermənistan Hələbə humanitar missiyanı uğurla icra edir və bu missiyanı davam etdirəcək. Hökumətin iclasından sonra icraedici hakimiyyətin nümayəndələri qapalı rejimdə Suriyadakı vəziyyəti və İrəvanın gələcək mövqeyini müzakirə edəcəklər".

Ermənistanın öz sərhədlərindən çox-çox uzaqda olan bir hadisədən bu dərəcədə narahat olması nə ilə bağlıdır?

Politoloq Zamin Axundov "Bakı-Xəbər"ə bildirdi ki, Ermənistanın belə mühüm geopolitik məsələlərə müdaxilə etməsi, fikir bildirməsi doğrudan da maraqlı görünür: "Aydındır ki, həmin ölkənin nə yerləşdiyi coğrafi mövqeyi, nə ərazisi, nə iqtisadi gücü bu cür qlobal məsələlərə qarışmağa imkan vermir. Ancaq Ermənistanın narahatlığı əsassız da deyil. Çünki bilir ki, bizim ən yaxın tərəfdaşımız Türkiyədir. Ankaranın geostrateji anlamda güclənməsi həm də bizim mövqelərimizin güclənməsi anlamına gəlir. Ermənistanın PKK ilə ciddi əlaqələri var. Türkiyə bilir ki, onu Cənubi Qafqazdan da təhdid edə biləcək PKK mövcuddur. Ermənistan Rusiyanın bu ərazidəki forpostudur. Amma onun bu bəyanatı müstəqil niyyətdən irəli gəlir. Çünki Suriyaya müdaxilədə Rusiya Türkiyəyə qarşı çıxmadı. Ermənistan bilir ki, Türkiyənin maraqları Suriyada güclənsə, avtomatik olaraq, bu onun Balkanlar və Cənubi Qafqazda güclənməsinə də səbəb olacaq. Ermənistan anlayır ki, ona qarşı da antiterror əməliyyatına başlamaq üçün kifayət qədər hüquqi əsas var. Beynəlxalq hüquq da bunu qəbul edir.

Çünki həmin ölkə, faktiki olaraq, Azərbaycanın ərazisini işğal edib. Onlar hesablayırlar ki, Türkiyənin prosesdən qalib çıxması onu dünyada daha vacib aktora çevirmiş olacaq ki, bunun Azərbaycan üçün əhəmiyyəti var. Ermənistanın narahatlığının kökündə duran amil məhz budur".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Müsavat Partiyasında ciddi çaxnaşma yaşanır. Artıq bu ziddiyyət özünü partiya kuluarlarından kənarda da göstərməyə başlayıb. Məlum olduğu kimi, Müsavat Partiyası oktyabr ayının 12-də növbəti qurultayına hazırlaşır. Verilən məlumatlarda bildirilir ki, partiya özünə yenidən başqan seçmək istəyir.**




# İsa Qəmbərin tərəfkeşliyi, Müsavatda yenidən "yarpaq tökmə" və prosesdə Əli Kərimlinin maraqları...

## *Səxavət Əlisoy: "Onlara sərf edir ki, orada Hacılı və onun ətrafında bir neçə nəfər yan-yörəsi qalsın"*

Artıq iddialılar da məlumdur. Hazırda partiya sədrliyinə 3 nəfərin namizədliyi qeydə alınıb. Bunlar Yadigar Sadıqlı, Tofiq Yaqublu və hazırda partiyaya rəhbərlik edən Arif Hacılıdır.

Maraqlıdır ki, namizədlərin apardığı təbliğatın ən qızğın vaxtında Müsavatın lideri İsa Qəmbər Arif Hacılının namizədliyini müdafiə etdiyini bəyan edib və partiyanın hazırkı başqanının ünvanına xoş sözlər səsləndirib, tərəfdarlarını da ona səs verməyə çağırıb. İsa Qəmbərin açıq tərəfkeşliyi partiya üzvləri və başqanlığa digər namizədlər arasında narazılıqla qarşılanıb. Yadigar Sadıqlı bildirib ki, İsa Qəmbər Arif Hacılını tərifləyərkən digər iki namizədlə bağlı yaxşı nəsə söyləməyib. Qeyd edək ki, bu mənzərə Müsavatın bundan əvvəlki qurultayında yaşananları xatırladır. Onda da Müsavat başqanlığı uğrunda Arif Hacılı ilə Qubad İbadoğlu arasında ciddi mübarizə gedirdi. Nəticədə Arif Hacılı başqan seçildi, Qubad İbadoğlu isə tərəfdarları ilə partiyanı tərk etdi. Nəticədə Müsavat ciddi itkiyə məruz qaldı. Ekspertlər eyni aqibətin bu qurultayda da yaşanacağını bildirirlər. Hətta qeyd edilir ki, Müsavatın parçalanması prosesinə Əli Kərimli tərəfindən də ciddi dəstək veriləcək. Bu dəstək özünü büruzə verməyə başlayıb. AXCP və "Milli Şura"nın təşkil etdiyi son aksiyada Tofiq Yaqublunun Müsavat üzvündən daha çox əsl AXCP-çi kimi davranması və onun Əli Kərimlinin həbsdən yeni çıxmış müavini Seymur Həzinin qaynatası olması bu ehtimalları daha da gücləndirir.

Müsavatın son qurultayında başqanlığa namizəd olmuş və sonra Arif Hacılının sədr seçilməsinə etiraz əlaməti olaraq partiyanı tərk etmiş Səxavət Əlisov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Müsavat Partiyasının növbəti parçalanmasına 12 oktyabrda start veriləcək: "Beş ildir partiyanın dərnəyə çevrildiyini kim inkar edə bilər? Böyüməsinə, formalaşmasına minlərlə, on minlərlə insanın əmək verdiyi partiyanı nədən bu acınacaqlı duruma saldılar? Əminəm ki, sual vicdanlı müsavatçıları çox ciddi narahat edir. Arif Hacılı partiyanı bitirdi. Görünür, beş il planın icrası üçün tam yetməyib. Növbəti 5 il üçün də hazırlaşırlar ki, missiyanı tam yerinə yetirsinlər. Gedin Bakının istənilən yerində bir sorğu keçirin. Görün Müsavat adlı partiyanı tanıyan varmı? Artıq cəmiyyət həmin partiyanın adını belə unudub. Yaratdıqları dərnəyi daha rahat idarə etməyə çalışırlar. Sədr kim olursa-olsun, o, partiyanı xilas edə bilməyəcək. Bir qədər Tofiq Yaqublu fəaldır. Bəlkə o nəsə edə, onu da qoymayacaqlar. Yadigar Sadıqlı 5 il bundan əvvəl mənim dediklərimi deyir. Onda isə Arif Hacılını müdafiə edirdi. Özləri də bilirlər ki, hansı seçilsə belə irəliləyiş olmayacaq. Nə qədər normal düşüncəli insan varsa, hamısı oradan uzaqlaşıb. Yerdə qalanları da bu qurultaydan sonra oranı tərk edəcək. Onlara sərf edir ki, orada Hacılı və onun ətrafında bir neçə nəfər yan-yörəsi qalsın. Bilirsiniz ki, bölgü məsələsində nə qədər az adam olsa, pay o qədər çox düşür. Təəssüf ki, Müsavat bu durumdadır. Arif Hacılı ora partiya yox, bir obyekt kimi baxır. Başqa hansı partiyanın bu məsələdə katalizatorluq edəcəyi ilə bağlı isə nəsə deyə bilmərəm. Burada heç qızışdırmaq lazım deyil. Proses öz axarı ilə ona doğru gedir".

> *"Bilirsiniz ki, bölgü məsələsində nə qədər az adam olsa, pay o qədər çox düşür"*

***Məhəmmədəli QƏRİBLİ***

# Türkiyənin Suriyada hərbi əməliyyatları ermənilərin "Sevr" istəyinin də üzərindən birdəfəlik xətt çəkir

**Dünyanın böyük diqqətlə izlədiyi əsas məsələlərdən biri də qardaş Türkiyənin Suriyanın şimalında başlatdığı hərbi əməliyyatlardır. Belə görünür ki, bu əməliyyat bölgədə kürdlərin yaratdığı terror təşkilatlarının, İŞİD-in mövqeyini əhəmiyyətli dərəcədə sarsıdacaq, ancaq geosiyasi müstəvidə də ciddi dəyişikliklərə səbəb olacaq.**



Çünki bütün Qərb dünyası sözügedən hərbi əməliyyatlara qarşıdır. Hətta ABŞ-da buna görə Türkiyəyə qarşı sanksiyaların tətbiqi belə gündəmdədir.

Məlumat üçün bildirək ki, ABŞ Senatı Suriya sərhədindəki YPG və PKK terror təşkilatına qarşı başladılan "Sülh çeşməsi" hərəkatı ilə əlaqədar Türkiyəyə qarşı sanksiyalar paketi hazırlayıb. Respublikaçı senator Lindsi Qrehem və demokrat senator Kris Van Hollen tərəfindən hazırlanan sanksiyalar paketində Türkiyəni hədəf alan ağır maddələr yer alıb. Prezident Rəcəb Tayyib Ərdoğan, həmçinin vitse-prezident Fuat Oktay və bəzi nazirlərin adları sanksiyalar paketinə daxil edilib. Bundan başqa, Suriyadakı əməliyyatlar 90 gün ərzində dayandırılmayacağı halda hərbi və ticarət sektorlarına ağır sanksiyaların tətbiqi, Türkiyə Silahlı Qüvvələrinə təyyarə, avtomobil və onlara aid bütün ehtiyat hissələrinin satışının və hərbi kəşfiyyat məlumatlarının paylaşmasının dayandırılması yer alıb. Həmçinin, enerji və neft satışı mövzusunda Türkiyəyə və Türkiyə ilə əməkdaşlıq edən xarici ölkə və təşkilatlara sanksiyaların tətbiqi təklif edilir. Senatorlar Rusiyadan S-400 zenit-raket sistemlərinin alınması ilə əlaqədar da sanksiyaların tətbiq olunmasını istəyiblər.

Sanksiyalar paketi Senatda qəbul olunarsa, prezident Donald Trampın masasına gəlmədən əvvəl Nümayəndələr Palatası tərəfindən də qəbul edilməlidir. Ancaq Trampın belə bir qanun layihəsinə veto qoymaq də səlahiyyəti var. Lakin Konqresin hər iki palatasında üçdə iki səs çoxluğu ilə qəbul edilərsə, Trampın veto səlahiyyətini keçərək qüvvəyə minir. Bundan öncə də Qrehem Türkiyəni sanksiyalarla, NATO-dan çıxarılacağı ilə hədələmişdi.

ABŞ Prezidenti Donald Tramp isə Türkiyənin Suriyanın şimalındakı kürdlərə qarşı hərbi əməliyyatını "işğal" adlandırıb. Amerika lideri NATO-ya üzv olan Türkiyənin hərəkətlərini bəyənmədiyini bəyan edib. Trampın sözlərinə görə, Türkiyənin "Sülh çeşməsi" "pis ideyadır" və dayandırılmalıdır: "NATO üzvü olan Türkiyə Suriyaya hücum etdi. ABŞ bu hücumu dəstəkləmir və Türkiyəyə bu əməliyyatın pis bir fikir olduğunu bildirir". Avropa Birliyi də Türkiyənin Suriyada başlatdığı "Sülh çeşməsi" əməliyyatına reaksiya verib. Avropa Komissiyasının sədri Jan-Klod Yunker Türkiyədən əməliyyatı dayandırmağı tələb edib, əks halda təhlükəsiz bölgə ilə bağlı ödəniş etməyəcəklərini bəyan edib. Amma Ankara, bu təhdidlərə rəğmən, əməliyyatları davam etdirəcəyini bəyan edib. Hətta Türkiyə ordusu Suriyanın şimalında yerüstü əməliyyatlara da başlayıb. Buna qədər isə Türkiyə ordusu Haseke əyalətində Darbasiyyə, Malikiyyə, Qamışlı, Rəkkada isə Tel-Abyad və Ayn-İsa şəhərlərinə aviazərbələr endirib. Ankara bəyan edib ki, türk ordusu "Sülh çeşməsi" əməliyyatı çərçivəsində Suriyanın şimal-şərqindəki YPG terrorçularından təmizləyəcək.

Onlara qarşı mübarizə aparan Suriya Demokratik Qüvvələrinin kürd birləşmələri Suriyanın şimal-şərqindəki Əl-Hasaka kəndində yerləşən neft quyularını yandırıblar.

Bundan əlavə, kürdlər Türkiyənin Suriya ilə sərhədindəki Ras əl-Ayn şəhərində təkərlərə od vurublar.Yaraqlı birləşmələrin qərargahı məhz bu şəhərdə yerləşir. Yaranmış vəziyyətdə kürdlər ABŞ-ın onları tək buraxmasından şikayətlənir. İndi onlar kömək üçün Rusiyaya üz tuturlar. Amma "vzqlyad.ru" portalı yazır ki, Rusiya Türkiyə ilə işbirlyinə daha çox önəm verir: "Türkiyə qoşunları Suriya Kürdüstanına müdaxiləyə başlayıb. Bu, əvvəlki müttəfiq - ABŞ kürdləri qorumaqdan imtina etdikdən sonra baş verib. Kürdlər Türkiyənin hücumu qarşısında artıq eyham vurublar ki, Rusiyanın simasında yeni müttəfiq axtarırlar. Ekspertlər Rusiyanı Türkiyə-kürd münaqişəsinə qarışmaqdan çəkindirir. İstisna deyil ki, Moskva Türkiyənin hərbi əməliyyatından xeyli fayda götürə bilər. Suriya Demokratik Qüvvələrinin tərkibindəki kürdlərin komandiri Məzlum Kobaninin fikrincə, Birləşmiş Ştatlar qoşunları çəkmək qərarı ilə kürdlərə münasibətdə ikili siyasət sərgiləyir. Suriya kürdlərinin Rusiyadakı emissarı Cavad Məhəmməd təsdiqləyib ki, amerikalıların bölgədən gedişi halında Suriya Kürdüstanında Moskva və Dəməşqlə danışıqlara hazırdırlar. O, "Vzqlyad" qəzetinə müsahibədə deyib: "Biz açıq qucaqla Dəməşqə müraciət edirik. Bizim onlarla dialoqumuz həmişə qalır. Bizim aramızda heç bir sərhəd yoxdur. Aramızda daim rabitə var. Türkiyənin geopolitik durumu ilə bağlı heç kim kürdlərə əl tutmaq istəmir. Biz Rusiyanın dəstəyinə çox ümid edirik. Biz hamımız Rusiyanı sevirik və tarixən çox bağlıyıq". Amma ekspert Fyodor Lukyanov hesab edir ki, Moskva indi kürdlərə heç bir halda müdafiə vəd etməməlidir: "İndiki anda Türkiyə ilə münasibətlər çox-çox önəmlidir. Kürd məsələsinə qarışmaq lazım deyil. Hər yolla şərait yaratmaq gərəkdir ki, kürdlər Dəməşqlə uzlaşmağın onlar üçün uzunmüddətli təhlükəsizliyi təmin etməkdə yeganə yol olduğu mövqeyə yaxınlaşsınlar". Hazırda gözlənilən budur ki, Moskva Türkiyənin əməliyyatlarına seyrçi qalacaq. Bu, Kreml üçün olduqca vacibdir. Məsələ burasındadır ki, regionda ABŞ-ın əsas planı Türkiyənin sərhədlərində olmaqla, İraq-Suriya sərhədindən Aralıq dənizinə qədər bir zolaqda kürdlərdən ibarət yeni dövləti qurmaqdır. Bu zolaq Suriyanın neftlə zəngin bölgəsidir və Aralıq dənizinə çıxır. Lakin əsas məsələ bunun iqtisadi tərəfləri deyil. Suriyanın yenidən dizayn edilməsi və yeni dövlət qurma cəhdləri "Sevr" planının tərkib hissəsidir.

Xatırladaq ki, 1920-ci ilin 10 avqustunda ABŞ prezidenti Vudro Vilsonun hazırladığı plana əsasən "Sevr" müqaviləsi imzalanıb. "Sevr" müqaviləsinə əsasən Osmanlı torpaqları bölünürdü. Osmanlının bölünən torpaqlarında "Böyük Kürdüstan" yaradılmalı, həmçinin, Türkiyənin Ərzurum, Trabzon, Van və Bitlis bölgələri Ermənistana verilməli idi. Bununla yanaşı, Trabzonun şərq hissəsi Gürcüstan və Ermənistan arasında bölünməli və ermənilər beləliklə Qara dənizə çıxış imkanı əldə etməli idilər. Elə bu səbəbdən erməni lobbisi indiyə qədər aktiv şəkildə Suriyanın şimalında kürd dövlətinin yaranmasına fəal dəstək verir. "Böyük Ermənistan" xəyalları quran ermənilərsə bu gün də kürdlərə hərtərəfli dəstək verir. Onlar hesab edir ki, "Kürdüstan" dövləti yaranarsa, "Sevr" diriləcək və bu onlara "Böyük Ermənistan" xülyalarını həyata keçirmək imkanı verəcək. Amma Türkiyənin hərbi əməliyyatları bütün bunların üzərindən birdəfəlik xətt çəkir.

***Nahid SALAYEV***

# Şimali Suriyada Türkiyənin əməliyyatları nə ilə nəticələnəcək - bəziləri ən pis olmaqla çox qorxulu proqnozlar var...

***Aydın Quliyev:** "İndi qardaş Türkiyənin Şimali Suriyada PKK uzantıları ilə neçə illik üzücü müharibəyə cəlb oluna biləcəyini kimsə bilirmi?"*

***Qabil Hüseynli:** "Bu məsələdə Türkiyə üçün elə bir ciddi təhlükə yoxdur"*

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, elan etdiyi kimi, Suriya ərazisinə qoşun yeritdi. Ərdoğanın əsas planı Türkiyənin Suriya ilə həmsərhəd zonası boyunca 30 km enində ərazini nəzarətə götürməkdir. Ankara bu addımı öz ərazilərini kürd terrorçularından qorumaq məqsədilə atdığını bildirir.**

Bu ərazilər Ankaranın nəzarətinə keçdikdən sonra Türkiyə ərazisində müvəqqəti məskunlaşmış 3,6 milyona yaxın suriyalı qaçqının burada yerləşdirilməsi nəzərdə tutulub.

Maraqlıdır ki, Türkiyənin Suriyaya qoşun yeritmək planına regionda maraqları toqquşan ABŞ və Rusiyanın heç biri etiraz etmədi. İki qarşı duran qüvvənin Ankarayla həmrəy olmasını Ərdoğanın diplomatik gedişlərinin uğurlu nəticəsi hesab etmək olar.

Hələ bu ilin əvvəlində ABŞ Prezidenti Donald Tramp bəyan etmişdi ki, Ankara Suriyaya qoşun yeridərsə, Türkiyənin iqtisadiyyatına ciddi zərbə vurulacaq. Ancaq hazırkı məqamda Ağ ev Ankaranın bu addımına qarşı çıxmadığını bildirsə də, regionda Türkiyəni dəstəkləməyəcəyini də söyləyir. Bir sıra ərəb ölkələri, İran, Avropa Birliyi Türkiyənin bu hərəkətinə haqq qazandırmır. Belə proqnozlar var ki, ABŞ bu məsələdə PKK və YPG-yə İŞİD-in əli ilə də ciddi dəstək verə bilər və nəticədə Türkiyə orada uzun sürən müharibəyə cəlb edilər. Yəni Türkiyənin bu həmləsi ilə bağlı bədbin proqnozlar verənlər də az deyil.

Şimali Suriyada Türkiyənin əməliyyatlarının nə ilə nəticələnəcəyi ilə bağlı fikirlərini öz "Facebook" səhifəsində "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev bölüşüb. Baş redaktor qeyd edir ki, Amerika Suriyanın şimalından qoşununu çəkir: "Trampın dedikləri isə budur:" Türkiyənin iqtisadiyyatını məhv edərik, Avropa ölkələri Suriyanın şimalında saxladığımız İŞİD terrorçusu olan vətəndaşlarına sahib çıxmasalar, onları açıb buraxacayıq". Böyük terror təcrübəsi olan bu qaniçənlərin buraxılandan sonra nə edəcəkləri təxminən bilinir. Trampın Ərdoğana və Türkiyəyə necə acıqlı olduğunu bilirik. Amerikanın neçə ildir Suriyada İŞİD-lə mübarizədə kürdlərlə necə açıq müttəfiqlik etdiyini də bilirik. 1960-cı illərin ortalarında İraqda general Qasemin və Həsən əl Bakrın (bunlar Səddamdan qabaq olublar) prezidentlikləri dövründə üsyançı Mustafa Bərzaninin kürd hərəkatına necə kömək etdiyini də bilirik. Bərzaninin Amerikada dəfn olunduğunu da bilirik. Baxmayaraq ki, 40-50-ci illərdə o, SSRİ-nin adamı idi və hətta Naxçıvanda mühacir həyatı yaşamışdı. Atanın xidmətlərini unutmayan Amerika 2003-cü ildə İraqa müdaxilə edən kimi oğul Məsud Bərzanini hakimiyyətə gətirdi, müstəqilliyə bircə "sm" qalan Kürdüstan yaratdı və İraqı faktiki parçaladı.

İndi qardaş Türkiyənin Şimali Suriyada PKK uzantıları ilə neçə illik üzücü müharibəyə cəlb oluna biləcəyini kimsə bilirmi? Suriyadan çəkilirəm deyən Tramp, əslində, kürdlərdən əlini çəkəcəkmi? Bərzanilərlə 60 il əvvəl başlanmış müttəfiqlik bağlantısına sadiqliyi təsadüfən yada salmadım. Şimali Suriyada Ərdoğanın üzücü müharibəsinin sonda orada da müstəqilliyə bircə "sm" məsafəsi qalmış Kürdüstanın yaranmasına gətirib çıxarmayacağına təminat varmı? Bu yandan da Rusiya dedi ki, Türkiyə Suriyanın torpaq bütövlüyünə hörmət etməlidir, yəni nə vaxtsa çıxmalıdır... Nəticəni birlikdə çıxaraq...".

Politoloq Qabil Hüseynli isə qəzetimizə açıqlamasında bildirdi ki, Türkiyənin addımları qanunidir: "O sərhədlərində Türkiyəyə qarşı olan PKK və YPG-nin demokratik qüvvələr adı altında alyans yaratmasını istəmir. Türkiyənin ən mühüm arzusu sərhədləri boyunca təhlükəsizlik zonaları yaratmaqdır. Bu zonalara da ərazisinə qaçıb gəlmiş 3 milyon yarımdan çox suriyalını yerləşdirməyə çalışır. Bu, tam humanitar bir istəkdir. Hər bir dövlət öz sərhədlərinin təhlükəsizliyini istəyir. Hər bir ölkə istəyir ki, ərazisinə yerləşmiş qaçqınlar ordusunu öz doğma yurd-yuvalarına qaytarsın. Bu məsələ belədir ki, Türkiyənin heç kimin bir qarış da torpağında gözü yoxdur. Sadəcə, Ərdoğanın təbliğatı bir qədər Türkiyə əleyhinə olan narazılıqları artırır. Ərdoğan ABŞ və Avropa ilə münasibətlərdə sərt davranış ortaya qoyur. Onlar da bu bəhanədən Türkiyə əleyhinə istifadə edirlər. Türkiyə təbii ki, uzun müddət orada qalmaq istəmir. Qaçqınları yerləşdirəndən sonra öz ərazisinə qayıdacaq. Ankaranın bu məsələdə ekspansionist niyyəti yoxdur. Təbii ki, ABŞ və digərləri prosesin uzun sürməsinə istəyər. Amma ordakı qüvvələr balansını tutuşduranda Türkiyə ordusunun çox güclü olduğu məlum olur. Onlar PKK-ya tez bir zamanda qalib gələcəklər. Hesab edirəm ki, bu məsələdə Türkiyə üçün elə bir ciddi təhlükə yoxdur. Sadəcə, Türkiyə daha risqsiz davrana bilərdi. Xüsusilə də ABŞ-la birgə əməliyyatı həyata keçirmək şansını əldən verdi. İstənilən halda, Türkiyə bu addımı atmalı idi. Çünki onun Suriya ilə 710 km-lik sərhədi var. Mütləq addım atmalı idi. İran kimi bir ölkə iki dövlətin üstündən atlanıb gəlib orada baza qura bilir, ancaq Türkiyə nəsə edəndə narazılıq olur?".



*Məhəmmədəli*
***QƏRİBLİ***

**Gürcüstanın bir dövlət olaraq sosial-iqtisadi inkişafında Azərbaycanın kifayət qədər mühüm rol oynaması heç kimə sirr deyil. Məhz Azərbaycanın həyata keçirdiyi transmilli layihələr nəticəsində bu qonşu ölkə həm də dünya üçün maraq kəsb edir.**

# İlham Əliyevlə Qaxariya Gürcüstan-Azərbaycan dostluğunun düşmənlərini məyus etdilər

İki ölkə arasında münasibətlərin belə inkişafından narahat olan qüvvələr də az deyil və onların başında Azərbaycan ərazilərinin bir hissəsini hələ də işğal altında saxlayan, Gürcüstana qarşı ərazi iddiaları olan Ermənistan gəlir.

Proseslər bu qənaətə gəlməyə əsas verir ki, Azərbaycanın onun üçün hansı əhəmiyyət kəsb etdyini rəsmi Tiflis də yaxşı başa düşür. Elə Gürcüstanın yeni baş naziri Giorgi Qaxariyanın ilk səfərini məhz Azərbaycana etməsi də bu xüsusda çox söz deyir. Gürcüstanın xarici işlər naziri David Zalkaliani məsələ ilə bağlı bildirir: "Gürcüstan baş naziri Giorgi Qaxariyanın ilk səfərini qonşu və strateji tərəfdaş olan Azərbaycana etməsi böyük əhəmiyyət kəsb edir". Onun sözlərinə görə, bu səfər həmçinin beynəlxalq əhəmiyyət daşıyıb: "Bu səfər göstərir ki, Gürcüstan əsas strateji tərəfdaşla münasibətlərin gücləndirilməsinə necə böyük önəm verir. Səfər çərçivəsində ikitərəfli münasibətlər müzakirə olunub və regiondakı vəziyyət, geosiyasi əhəmiyyət kəsb edən, olduqca uğurlu nəqliyyat və infrastruktur layihələri də nəzərdən keçirilib".

O vurğulayıb ki, Gürcüstanın baş naziri Bakıda Azərbaycan Prezidenti İlham Əliyevlə "Keşikçidağ" məbəd kompleksi ilə bağlı məsələni də müzakirə edib: "İki ölkə arasında istənilən mübahisəli məsələnin strateji tərəfdaşlıq münasibətlərinə uyğun formada həll olunması çox vacibdir. Biz Azərbaycandan məsələ ilə bağlı əhəmiyyətli nəticə ilə qayıtmışıq. Əminəm ki, Gürcüstan və Azərbaycan tərəfi "Keşikçidağ"la bağlı məsələni hər iki tərəf üçün məqbul olan formada həll edə biləcək". XİN başçısı "Keşikçidağ"la bağlı məsələnin olduqca həssas olduğunu qeyd edib. O, ictimaiyyəti məsələ ilə bağlı hər bir söz, ifadə və addıma xüsusi diqqət və ehtiyatla yanaşmağa çağırıb.



Bakıdan səfərdən qayıdan Giorgi Qaxariya özü isə hökumətin iclasında bildirib ki,

Azərbaycan "Keşikçidağ" monastırını yenidən gürcü zəvvarların ziyarətinə açır. Xatırladaq ki, Azərbaycan ərazisində yerləşən "Keşikçidağ" məbədinə gediş-gəliş bu ilin iyul ayında bir qrup Gürcüstan vətəndaşının törətdiyi təxribatdan sonra dayandırılmışdı. Giorgi Qaxariya isə qeyd edir: "Oktyabrın 11-dən etibarən "Keşikçidağ" kompleksindəki məbədlər Gürcüstan zəvvarları üçün açıq olacaq. Təəssüflər olsun ki, Gürcüstan və Azərbaycan arasındakı sərhəddə razılaşdırılmamış sahələr var. Bu bizim postsovet irsimizdir və problem 25 il ərzində həll olunmayıb".

Baş nazir qeyd edib ki, "Keşikçidağ" məsələsində mərhələli şəkildə ciddi nailiyyətlər əldə edilməlidir. Qaxariya Gürcüstan vətəndaşlarını "Keşikçidağ" məsələsi ilə bağlı hər bir addım və sözdə məsuliyyətli və ehtiyatlı davranmağa çağırıb: "Vətənə sevgi və vətənpərvərlik yalançı vətənpərvərlik ifadələri və düşünülməmiş addımlar demək deyil". Xatırladaq ki, Giorgi Qaxariya Bakı səfəri ərəfəsində gürcü Patriarxı ikinci İlya Qafqaz Müsəlmanları İdarəsinin rəhbəri Allahşükür Paşazadəyə müraciət ünvanlayaraq Bakını "Keşikçidağ" monastırına girişi açmağa çağırmışdı. Məktubda yer alan məqamlar onun bu məsələdə heç də gürcü hökumətinin mövqeyinə uyğun davranış sergiləmədiyini göstərdi. Bu mənada Giorgi Qaxariyanın hökumətin iclasında dedikləri və yalançı vətənpərvərlik ifadələrinin "Keşikçidağ" monastırı ətrafında qalmaqal yaratmaq istəyən qüvvələrə bir mesaj olması da şübhə doğurmur. Baş verənlərlə bağlı Rusiyanın "Nezavisimaya qazeta" mətbu orqanı yazır: "Azərbaycan Gürcüstanın yeni baş naziri Giorgi Qaxariyanın rəsmi səfər etdiyi ilk dövlətdir. Bu sayaq görüşlər, adətən, qonşu başçılarla şəxsi tanışlığa xidmət edir. Lakin Gürcüstan baş nazirinin vəzifəsi çətindir - Gürcüstanın katolikos-patriarxı İliya orta əsrlər "David Qareci" ("Keşikçidağ") monastır kompleksi ətrafındakı durumu tənzimləmək xahişi ilə ona müraciət edib. İkinci İliyanın Qaxariyanın Bakı səfəri ərəfəsində elan edilmiş məktubunda deyilir ki, Azərbaycan tərəfi 1938 və 1996-cı illər sazişlərindən uzaqlaşaraq "faktiki olaraq Udabno və Çiçxitura monastırlarını mənimsəyib". Beləliklə, Qaxariyanın üzərinə çox mürəkkəb missiya qoyulub. Bunun icrası bütünlükdə və yalnız Bakının xeyirxah iradəsindən asılıdır. Bu arada Azərbaycan mediası yazır ki, heç kimlə uzlaşdırmadan öz ərazisində sərhəd məntəqəsi açmaq hər bir dövlətin suveren hüququdur. Bildiilir ki, Azərbaycan ərazisində yerləşmiş tarixi abidələr, o cümlədən xristian abidələri Azərbaycana məxsusdur və bu haqda qərarı ancaq rəsmi Bakı qəbul edir. Belə məsələlərdə ərazi amili üstün olur, fərziyyələr və gümanlar, milli və dini təsəvvürlər deyil... Çağdaş dünyada hüquqi məsələlərdə tarixi fərziyyələr deyil, de-yure ərazi və sərhədlər əsas götürülür: "Qeyri-konstruktiv mövqeyə gəlincə, gürcülərin bu ölkənin bəzi siyasətçilərinin xeyirxah qonşuluqdan çıyrindirən lüzumsuz, hətta fitnəkar davranışını yada salmaları pis olmazdı".

Bununla belə, "David Qareci" ətrafındakı hadisələr Gürcüstanın ictimai fəallarını yenidən "oyadıb". Onların qeyri-formal liderləri bu ilin aprelində keçirilmiş aksiyalara bənzər yeni aksiyalar təşkil etməyə hazırlıqdan danışmağa başlayıblar. Onlar o zaman monastır kompleksi ərazisində Gürcüstan bayrağını ən yüksək nöqtələrdən birinə taxıblar, bir sıra başqa hərəkətlər isə Azərbaycan sərhədçilərilə, xoşbəxtlikdən, tezliklə yoluna qoyulmuş xırda insidentlərə səbəb olub.

Aydındır ki, hələ dövlət sərhədinin demarkasiyası və delimitasiyası prosesinin başa çatmağı haqda demirik, ora baş çəkməyin şərtləri haqda aydın saziş bağlanmayınca iki qonşu ölkənin münasibətlərini kəskinləşdirmək səbəbinə çevrilmək monastır kompleksinin qismətidir. Hüdudları təyin etmək üzrə birgə Azərbaycan-Gürcüstan komissiyası tərəfindən işlər bir neçə ildir aparılır və nəticəsiz, ləng xarakter alıb". Burada bir məqamı da qeyd edək ki, sərhədlərin danışıqlar yolu ilə müəyyən olunması bu gün rəsmi Bakı və Tiflisin maraq dairəsindədir. Amma Gürcüstanda müəyyən qüvvələr hələ də məsələyə təxribatçı don geyindirməyə çalışır və burada erməni lobbisinin rolunun olması heç kimə sirr deyil. Bu səbəbdən hesab edilir ki, Tiflis özü belə qüvvələrin neytrallaşdırılması üçün daha sərt hərəkətə keçməlidir.

***Tahir TAĞIYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# İrəvanın sülh prosesini açıq-aşkar ləngitdiyi tezisi dünya rəyində hakim mövqeyə keçir...

**Azərbaycanın xarici siyasətdə əldə etdiyi uğurlardan bu gün ən çox əndişə duyan tərəflərdən biri də işğalçı Ermənistandır. Çünki belə vəziyyətdə Ermənistanın mövqeyi dünya dövlətləri üçün tamamilə arxa plana keçir və əksər hallarda ümumiyyətlə qəbul olunmur. Bu durum, xüsusən də Dağlıq Qarabağ münaqişəsi ilə bağlı prosesdə özünü qabarıq şəkildə büruzə verir.**

Real vəziyyətin təhlili göstərir ki, hazırda Azərbaycan xarici siyasəti istər ikitərəfli əsaslarda, istərsə də çoxtərəfli müstəvidə uğurla həyata keçirilir. Bu fonda daha bir vacib məqam bundan ibarətdir ki, regionda Azərbaycanın iştirakı olmadan istər siyasi, istərsə də iqtisadi sahələrdə hansısa uğurlu əməkdaşlıq qurmaq mümkün deyil. Burada yalnız Azərbaycanın zəngin təbii ehtiyatları və ya əlverişli coğrafi-siyasi vəziyyəti deyil, həmçinin ölkənin balanslaşdırılmış xarici siyasəti, cəmiyyət daxilində gedən proseslər, ictimai-siyasi sabitlik, beynəlxalq aləmə uğurlu inteqrasiya, sabit inkişaf və digər bu qəbildən olan amillər də önəmli rol oynayır. Təbii ki, bu halda Azərbaycanla əməkdaşlığı dərinləşdirmək istəyən ölkələrin də sayı artır. Qeyd edilənlərdən məharətlə istifadə edən Azərbaycan artıq beynəlxalq ictimaiyyətin diqqətini Dağlıq Qarabağ münaqişəsinə istədiyi formada cəlb etməyə də nail olub. Elə bundan irəli gəlir ki, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq ədalətli həll edilməsini tələb edən dövlətlərin, təşkilatların sayı artır. Qeyd olunan istiqamətdə əldə edilən nailiyyətlərin miqyasının daha da genişlənməsi gözlənilir. İlk növbədə o baxımdan ki, rəsmi Bakının yürütdüyü siyasət Azərbaycanın regionda və dünyada müttəfiqlərinin sayını davamlı şəkildə artırır. Ölkəmizin dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətləri keyfiyyətcə yeni müstəvidə daha da inkişaf edir. Nəticədə, Azərbaycan yalnız beynəlxalq regionda gedən proseslərə deyil, eyni zamanda, beynəlxalq aləmdə cərəyan edən proseslərə də təsir göstərmək imkanı qazanır. Dünya görür ki, Azərbaycan artıq Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi çətin geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirir. Məhz bunun nəticəsidir ki, Qarabağ münaqişəsinin nizamlanması istiqamətində Azərbaycanın mövqeyini müdafiə edənlərin də sayı artır.

Hadisələrin qeyd edilən səpkidə inkişaf axarından isə Ermənistanın duyduğu narahatlıq da artır. Çünki bu durumda adıçəkilən ölkənin işğal siyasətini davam etdirə bilməsi daha müşkül hala gəlir. Hətta yaranmış durumda ənənəvi müttəfiqləri belə Ermənistandan üz döndərir. Məsələn, Rusiyanın timsalında baş verənlər, əslində ermənilərin narahatlığının əbəs olmadığını deməyə əsas verir. Faktdır ki, bu gün şimal qonşumuz Ermənistana həmişəki dəstəyi vermir və hətta onun Qarabağ münaqişəsi ilə bağlı mövqeyini rəsmi səviyyədə açıq tənqid hədəfinə çevirir. Rusiya Dövlət Dumasının deputatı Dmitri Savelyev bunu təbii sayır və qeyd edir ki, Ermənistanın işğal siyasətinə son qoyması bütün regionun gələcəyi baxımından da mühüm əhəmiyyətə malikdir: "Hazırda danışıqlar prosesi mahiyyət etibarilə Ermənistan tərəfindən bloklanıb. İrəvan sülhyaratma prosesini açıq-aşkar ləngidir. Bunu həm ölkə rəhbərliyinin təxribat xarakterli bəyanatları, həm də erməni siyasətçilərinin anlaşılmaz kursu göstərir. Elə təəssürat yaranır ki, onların Qarabağ məsələsinə dair heç bir dəqiq strategiyası yoxdur, əks halda, Ermənistanın hətta özünə ziyan vurmaq, perspektivli iqtisadi layihələrdən kənarda qalmaq hesabına danışıqları çıxılmaz vəziyyətə salmaq inadı nə ilə izah oluna bilər? Artıq hamıya aydındır ki, problemi həll etmək lazımdır. Münaqişə daima durğunluq vəziyyətində qala bilməz". Savelyev, bu mənada, "Valday" Beynəlxalq Diskussiya Klubunda Prezident İlham Əliyevin çıxışında səsləndirdiyi fikirlərin Rusiya və dünya tərəfindən qəbul olunduğunu da xüsusi olaraq qeyd edir. Elə Prezident İlham Əliyevlə Bakıda görüşən Rusiya Dövlət Dumasının MDB, Avrasiya inteqrasiyası işləri üzrə və həmvətənlərlə əlaqələr komitəsinin sədri Leonid Kalaşnikov da eyni mövqeni ifadə edir. Onun sözlərinə görə, İlham Əliyevin Rusiyaya son səfəri çox böyük effekt doğurub. Leonid Kalaşnikov İlham Əliyevin "Valday" Beynəlxalq Diskussiya Klubundakı çıxışının diqqətlə izləndiyini və bu çıxışın böyük təəssüratlar doğurduğunu da xüsusi olaraq qeyd edir. Bunun əvəzində isə Rusiyanın Ermənistanla böyük problemlərinin yaranması özünü qabarıq şəkildə büruzə verir. Rusiyanın birinci dərəcəli dövlət müşaviri Modest Kolerov da bunu təsdiqləyir. Onun sözlərinə görə, indi Ermənistanın Rusiya ilə çox ciddi problemləri yaranıb. O, Rusiya prezidenti Vladimir Putinin İrəvana etdiyi səfərdən sonra bütün bunların özünü daha qabarıq surətdə büruzə verdiyini də vurğulayır: "Vladimir Putinin bu səfəri Ermənistan üçün yox, Avrasiya İqtisadi Birliyinin tədbirində iştirak etmək üçün idi. Yəni Ermənistana səfər olmayıb. Digər tərəfdən, səfər zamanı Robert Köçəryanın həyat yoldaşı ilə Putinin görüşü kifayət qədər uzun və detallı oldu. Bu barədə rəsmi açıqlama yoxdur, mən hətta hesab edirəm ki, açıqlama olacağı ehtimalı azdır. Böyük ehtimalla, Bella Köçəryan Ermənistanda hökm sürən vəziyyət haqqında Putinə məlumat verib. Bu isə Rusiyanın Ermənistan siyasətində korrektələrin olacağını deməyə əsas verir. Ermənistanın yeni hakimiyyətinin seçimi Rusiyanı buna vadar edir. Artıq dövlətlərarası münasibətlərdə problemlər var. Köçəryanın işi, Paşinyanın xarici siyasətdə yol verdiyi yanlışlıqlar artıq erməni-rus dövlətlərarası əlaqələrində problem yaradıb. Bunun nəticələrini erməni tərəfi görəcək". Modest Kolerov, Ermənistandan fərqli olaraq, Rusiyanın Azərbaycanla münasibətlərinin daha böyük uğurla inkişaf etdiyini də etiraf edib. Amma məsələ təkcə RSusiya-Ermənistan münasibətləri ilə məhdudlaşmır.

Ermənistan mediasının yazdıqlarından belə bəlli olur ki, İrəvanın MDB məkanında digər ölkələrlə də əlaqələrində problem hökm sürür. Bu xüsusda Ermənistanın "politik.am" nəşri konkret misal kimi Belarus, Ukrayna, Qazaxıstan göstərir. Qeyd olunur ki, son həftələrdə Ermənistan-Ukrayna və Ermənistan-Qazaxıstan münasibətlərində olduqca maraqlı və dramatik hadisələr baş verir: "Baş nazir Paşinyan bir tərəfdən Ukrayna prezidenti Vladimir Zelenskiyə görə Vladimir Putinlə ünsiyyət qurması üçün "master-klass" keçirsə, digər halda Kasim-Jomart Tokayevlə selfi çəkdirir. Belə vəziyyətdə Ukrayna Xarici İşlər Nazirliyi öz vətəndaşlarına müraciət edərək, Cənubi Qafqaza səyahət edərkən Abxaziya, Cənubi Osetiya və Dağlıq Qarabağa getdikdə Gürcüstan və Azərbaycan qanunvericiliyini rəhbər tutmağa dair çağırış edir. Daha sonra xəbərdarlığın Ukrayna dövləti və Ukrayna xalqının maraqlarından və təhlükəsizliyindən yersiz məhkəmə proseslərindən uzaq durma istəyi və ya niyyətindən irəli gəldiyini əlavə edir. Bakıda keçirilən ədəbi festivalda iştirak etmək üçün Azərbaycana səfər edən tanınmış qazax ictimai-siyasi xadimi, yazıçı Oljas Süleymenov "Vestnik Kavkaza" nəşrinə müsahibəsində bildirir ki, yalnız Ermənistanda Qarabağı Ermənistan hesab edirlər və dünyanın heç bir yerində belə düşünmürlər. Ukrayna məsələsində Ermənistan Xarici İşlər Nazirliyinin hər hansı şəkildə reaksiyası olsa da, yeri gəlmişkən, daim Azərbaycanın maraqları üçün lobbiçiliklə məşğul olan Oljas Süleymenovun işində, hətta Nur-Sultandakı erməni diplomatik nümayəndəliyi səviyyəsində də heç kim cavab verməyi lazım bilməyib. Heç olmasa, bu kimi ifadələrin danışıqlar prosesinə zərər verə biləcəyini söyləmək lazım idi. Bir halda açıq-aydın bir qərbyönümlü ölkə olan Ukraynadır, digər halda isə müttəfiq Qazaxıstanı təmsil edən nüfuzlu xadimdir. Ancaq istənilən halda, Qazaxıstanın həmişə Azərbaycanpərəst olmasını unutmayaq, ən azı, bu ölkənin ilk prezidenti Nursultan Nazarbayevin açıqlamalarını və hərəkətlərini xatırlamaq lazımdır. Qazaxıstan Ermənistanın təmsil olunduğu bütün regional inteqrasiya ittifaqlarında təmsil olunur və bu mənada müttəfiqdir. Belə deyək, reallıq İrəvanın lehinə deyil. Reallıq budur ki, postsovet məkanında Azərbaycanyönümlü fikirlər güclənməyə başlayıb, İrəvanda isə xarici siyasi cəbhəni unudaraq, yalnız daxili siyasi gündəm məsələlərini həll etməklə məşğul olurlar". Burada bir məqamı xatırladaq ki, ümumiyyətlə, MDB məkanında yer alan ölkələr birmənalı şəkildə Azərbaycanın mövqeyinə dəstək verir və bu dəstək getdikcə güclənir.

MDB məkanı ilə yanaşı, Azərbaycanın xarici siyasət strategiyasının uğurla həyata keçirilməsi Qərb dünyasında da ölkəmizə Qarabağ məsələsində mühüm dəstək ifadə edilməsi ilə müşayiət olunur. ATƏT-in, NATO-nun, Avropa Parlamentinin, Avropa Şurasının, eləcə də ayrı-ayrı Qərb dövlətlərinin Qarabağ konfliktinə dair mövqeyi də bunu aydın surətdə təsdiq edir. Onlar məhz BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamə əsasında münaqişənin həllini vacib sayır, birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və işğala son qoyulmasının zəruriliyini bildirirlər. Bütün bunlar Azərbaycanın xarici siyasətinin mühüm uğuru olmaqla yanaşı, Ermənistan üzərində ölkəmizin mövqelərinin daha güclü hala gəlməsinin də real təzahürü sayılır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Gürcüstan Patriarxı bizim Şeyxə hansı xəritələrdən danışıb - tarixçilərimizin reaksiyası...

***Faiq Ələkbərli:*** *"Gürcüstanın Katolikos-Patriarxı İİ İlyanın 1936 və 1966-cı illərdə müxtəlif xəritələrdə və hansısa sənədlərdə Keşikçidağ monastırının Gürcüstan ərazisi kimi göstərildiyini iddia etməsi də tam əsassızdır"*

***Məhərrəm Zülfüqarlı:*** *"Keşikçidağ monastırı Azərbaycanındır və o heç vaxt Gürcüstan ərazisi kimi mövcud olmayıb"*

**Son bir neçə aydır Gürcüstan tərəfin haqsız iddiaları ilə qarşılaşmışıq. Söhbət Gürcüstan-Azərbaycan sərhəddində yerləşən və Azərbaycana aid olan Keşikçidağ (David Qareci) monastır kompleksindən gedir. Uzun müddətdir iki ölkə arasında dartışma predmetinə çevrilən bu məbədə qarşı Gürcüstan tərəfi əsassız iddialar irəli sürməkdədir.**

Xeyli vaxtdır hökumət rəsmiləri tərəfindən müzakirə edilən bu məsələyə indi də Gürcüstanın Katolikos-Patriarxı II İlya qarışıb. Əvvəllər o, buna siyasi hadisə kimi yanaşdığını və dövlət rəsmilərinin həll etməli məsələ olduğunu desə də, indi tamam başqa bir mövqe nümayiş etdirir. Özü də heç bir əsası olmayan iddialar ortaya atır.

Məlumatlara görə, Gürcüstanın Katolikos-Patriarxı II İlya Keşikçidağ (David Qareci) monastır kompleksi ilə bağlı Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadəyə "Keşikçidağa girişi qaytarın" iddiası ilə məktub ünvanlayıb. Mətbuatda yer alan məktubda gürcü patriarxı Azərbaycan tərəfini zəvvarların Çiçxituri və Udabno monastırlarına baş çəkmələrinin qarşısını faktiki olaraq kəsməkdə ittiham edib.

Maraqlıdır ki, bu məktub Gürcüstanın yeni Baş naziri Corc Qaxarianın Azərbaycana vacib dövlət səfəri ərəfəsində dərc edilib. C.Qaxaria özünün birinci dövlətlərarası səfəri üçün məhz Azərbaycanı seçib.

Məktubda Gürcüstan Patriarxı qeyd edir ki, 1938 və 1966-cı illər müqavilələrində, habelə Xalq Daxili İşlər Komissarlığı (NKVD) tərəfindən hazırlanan xəritədə Udabno və Çiçxituri monastırları Gürcüstan daxilində göstərilib.

O bildirib ki, bu gün Azərbaycan tərəfinin, hansı ki, 2019-cu ildən etibarən onları Çiçxituri və Udabno monastırlarından məhrum edib, iddiaları tamamilə anlaşılmazdır. Onun yazdığına görə, Azərbaycan həmin monastırların yaxınlığında hələlik qeyri-müəyyən bir yerdə sərhəd sektoru tikib və ziyarətçilərin, turistlərin və hətta din xadimlərinin bu ibadət yerlərinə gedən yolunu tamamilə kəsib: "Təbii ki, biz bununla barışmayacağıq".

Gürcü Patriarxı Azərbaycan tərəfini status-kvonu bərpa etməyə və dindarların, zəvvarların və turistlərin Udabno və Çiçxituri monastırlarına baş çəkmələrini yeniləməyə - "girişi qaytarmağa" çağırıb.

Xatırladaq ki, iyulun 14-də Gürcüstan vətəndaşları Azərbaycan Dövlət Sərhəd Xidmətinin sərhəd naryadına qarşı insident törətmişdilər. Azərbaycan Xarici İşlər Nazirliyi Şəmkir sərhəd qrupunun Keşikçi Qalasının xidməti postunda baş verən bu hadisə ilə əlaqədar Gürcüstanın Bakıdakı səfirindən izahat tələb etmişdi.

Gürcüstanın Katolikos-Patriarxı II İlyanın Şeyxülislama ünvanladığı məktubu və bu məktubda yer alan qondarma xəritə məsələsini şərh edən tarixçi-alimlər hesab edirlər ki, Keşikçidağ monastırı tarixən Azərbaycanın olub və o həmişə Azərbaycanın sərhədləri daxilində tanınıb. Gürcüstan Patriarxının iddiasının tamamilə əsassız olduğunu və tarixi faktları əks etdirmədiyini, qeyri-reallığa söykəndiyini deyən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərli "Bakı-Xəbər"ə bildirdi ki, Gürcüstan Patriarxı erməni katolikosunun yolunu getmək istəyir. O qeyd etdi ki, Keşikçidağ məbədinə iddia edən Gürcüstan bununla heç nə qazanmır, əksinə, çox şey itirmək astanasına yaxınlaşır. "Birincisi, II İlyanın, eləcə də Gürcüstan keşişlərinin belə sərt formada bəyanatlar verməsi, fikir bildirməsi, əslində, bu və digər baxımdan Gürcüstan hökumətinin maraqları ilə üst-üstə düşür. Mən hesab edirəm ki, II İlyanın heç bir tarixi fakta söykənmədən A.Paşazadəyə belə sərt bir məktub ünvanlaması Gürcüstan hökumətinin Azərbaycan torpaqlarına iddia etməsi anlamını daşıyır. Onlar indi də torpaq iddialarını monastır üzrərindən davam etdirirlər. Bu, qeyd etdiyim kimi, dolayısı ilə Gürcüstanın Azərbaycan torpaqlarına iddiasını yenidən meydana atır. Bu olduqca zərərli haldır və qətiyyən Gürcüstanın xeyrinə deyil. Halbuki, Azərbaycan dövləti, xalqı bütün dövrlərdə, istər Heydər Əliyevin prezidentliyi illərində, istərsə də indi daim Gürcüstana həm iqtisadi, həm də digər məsələlərdə dəstək olub, hətta güzəştə getmişik. Amma bunun qarşılığında Gürcüstan tərəfi bizdən din xadimlərinin əli ilə torpaq istəyir. Çünki rəsmi səviyyədə bunu açıq deyə bilmirlər. Monastır məsələsini qabardaraq və keşişləri irəli verərək bu iddanın onların dilindən səsləndirilməsi yaxşı hal deyil.

Gürcüstanın Katolikos-Patriarxı II İlyanın 1936 və 1966-cı illərdə müxtəlif xəritələrdə və hansısa sənədlərdə Keşikçidağ monastırının Gürcüstan ərazisi kimi göstərildiyini iddia etməsi də tam əsassızdır. Çünki belə bir sənədə kimsə rast gəlməyib. Bu sənədi də, xəritəni də sonradan gürcülər özləri hazırlayıblar. Belə bir sənəd, xəritə olsaydı, gürcülər onu çoxdan üzə çıxarardılar. Onun saxta olduğu aydın görünür".



F.Ələkbərli qeyd etdi ki, Gürcüstan dövləti və hökuməti zaman-zaman Qazax-Ağstafa, Zaqatala-Balakən ərazilərinə qarşı, örtülü şəkildə də olsa, öz iddialarını səsləndirib. Bunların heç bir gerçəkliyə söykənmədiyini deyən F.Ələkbərli hesab edir ki, gürcülər də ermənilər kimi bəzi xəritələri saxtalaşdırmaq yolunu tutublar. "Bildiyimiz kimi, Səfəvilər dövründə Azərbaycanın olan ərazilərimiz Gürcüstana verilib. Hətta Tiflisin özü uzun əsrlər müsəlman-türk şəhəri kimi tanınıb, bu, mənbələrdə də var. Azərbaycanın şimalı Çar Rusiyası tərəfindən işğal edildikdən sonra erməni və gürcü şovinistləri Çar Rusiyası və sovetlərlə "din qardaşlığı" nəticəsində Azərbaycan torpaqlarını mənimsəmək, bizim torpaqlarımıza qarşı böyük ərazi iddiaları irəli sürmək məsələsini ortaya qoydular. İki əsr bundan əvvələ baxdıqda görürük ki, həm İrəvanın, həm də Tiflisin mərkəzində əsasən türklər yaşayıb. Çox təəssüflər olsun ki, Çar Rusiyası və Sovet dövründə müəslman və türk olduğumuz üçün bir sıra proseslər bizim əleyhimizə işləyib. İlyanın atdığı addımları vaxtilə erməni din xadimləri də bizə qarşı atıb. Çox təəssüflər olsun ki, bu gün gürcülər də ermənilərin bu xoşagəlməz addımlarını təkrar etmək istəyirlər. Gürcüstanın bugünkü mövcudluğunda Azərbaycanın xüsusi çəkisi var. Gürcüstan hökuməti, dövləti bundan nəticə çıxarıb keşişləri qabağa salmaqdansa, iki qonşu dövlətin normal səviyyədə münasibətlərinin qorunmasına çalışmalıdır" - deyə F.Ələkbərli bildirdi.

Tanınmış tarixçi-alim, professor Məhərrəm Zülfüqarlı isə hesab edir ki, Gürcüstanın Katolikos-Patriarxı II İlyanın bu məktubunun arxasında separatçı qüvvələrin çirkin niyyətləri dayanır. "Bilirsiniz ki, biz uzun müddət belə təxribatlarla üzləşmişik. Keşikçidağ monastırı Azərbaycanındır və o heç vaxt Gürcüstan ərazisi kimi mövcud olmayıb, patriarxın bəhs etdiyi xəritənin mövcudluğu şübhə doğurur. II İlyanın da bu məktubu təxribat xarakterlidir. Çox qəribədir ki, bu cür təxribatlar həmişə hansısa hadisələr ərəfəsində baş verir. Gürcü Patriarxa sual olunur: sənə nə oldu ki, Keşikçidağ həqiqətən də sizin idisə, əvvəllər bu məsələni qaldırmırdın, bəs indi nə üçün qaldırmısan? Sənin hansısa faktın vardısa, onu indi niyə gündəmə gətirirsən? Burada böyük dövlətlərin Azərbaycana qarşı təxribatının izləri var və bu, Gürcüstan-Azərbaycan münasibətlərini korlamağa hesablanıb. Belə hallarda da əsasən milli və dini münasibətlər önə çəkilir, təxribatlar onun üzərində qurulur. Tam əminliklə deyirəm ki, bu, indiki vaxtda Gürcüstanın özü üçün ziyanlı məsələdir. Sabah bundan gürcü xalqı əziyyət çəkəcək, Azərbaycanda da narahatlıq olacaq. Patriarx da məktubunu yazıb, müraciətini edib, rahatca yerində oturacaq, heç kəs də ona heç nə deməyəcək. Çünki dini rəhbərlərə heç zaman toxunmurlar. Hesab edirəm ki, gürcü xalqının demokratik qüvvələri özləri o patriarxı yerində oturtmalıdırlar ki, belə təxribatlara yol verməsin. Gürcüstan Azərbaycandan bəhrələnən bir ölkədir. Bakı-Tiflis-Ceyhan kəmərinin, Bakı-Tifls-Qars dəmir yolu xəttinin Gürcüstandan keçməsi sahəsində bu ölkə tranzit ölkə kimi külli miqdarda qazanc götürür. Belə nankorluq adətən qızışdırıcı separatçılar tərəfindən həyata keçirilir. Yadda saxlamaq lazımdır ki, ərazi iddiasına qalsa, Azərbaycanın Gürcüstana qarşı ərazi iddiaları ola bilər. Borçalı kimi böyük ərazimiz hələ Gürcüstan ərazisi kimi qalır, amma tarixən Borçalı Azərbaycan torpağıdır. Biz, həmçinin, Müsəlman-Türk Tiflis Əmirliyini də yada sala bilərik. Bu bizə indiki dövrdə lazım deyil. Bu gün Gürcüstan özü separatizmdən əziyyət çəkir, Abxaziyanı, Cənubi Osetiyanı itirib, ermənilər Msxeti-Cavaxeti bölgəsinə idda edirlər. Gürcüstan Azərbaycan kimi güclü dövlətə qarşı belə bir təxribatçı fikir irəli sürməməlidir. Gürcülər gələcəkdə növbəti dəfə torpaq itirmək istəmirlərsə, Azərbaycan kimi strateji müttəfiqdən möhkəm yapışmalıdırlar".

Tarixə nəzər salan M.Zülfüqarlı qeyd etdi ki, gürcülər tarixin müxtəlif dönəmlərində Azərbaycana qarşı təxribatlar törədiblər. Gəncə zəlzələsi dövründə Gəncəyə hücum edən gürcülər Gəncə qapılarını aparıblar. "Gürcülərin bizə qarşı tarixən xəyanətləri olub. Gəncədə böyük zəlzələ baş verərkən və insan tələfatı olarkən gürcülər Gəncəyə hücum edib və Gəncə qapılarını aparıblar. Bir tayını monastırın damını təmir edərkən orada istifadə ediblər, o biri tayını isə özlərində saxlayaraq vermirlər. Bu təxribatlar Mircəfər Bağırovun vaxtında da olub. 1945-ci ildə müharibə qurtaran kimi gürcülər ermənilərlə birgə Azərbaycana qarşı ərazi iddiaları irəli sürüblər. M.Bağırov Moskvaya yazdığı bir məktubla həmin təxribatların qarşısını alıb. İndi də Azərbaycan güclü dövlətdir və bu məsələdə itirən ancaq Gürcüstan ola bilər. O itirə-itirə gedən bir ölkədir. Azərbaycan kimi qonşunu, strateji müttəfiqi itirsə, gələcəkdə onun üçün pis olar" - deyə M.Zülfüqarlı qeyd etdi.

***İradə SARIYEVA***

Uzun müddətdir Azərbaycanda "Diffamasiya haqqında" qanunla bağlı ictimai müzakirələr aparılır. Hətta bununla əlaqədar Aİ və AŞ ilə Azərbaycan Mətbuat Şurası birgə layihələr həyata keçirir.

# Böhtan-təhqiri cinayət tərkibli əməllər sırasından çıxaracaq qanunun müzakirəsi deyəsən reallaşır...



***Azər Həsrət:** "İlin sonuna qədər "Diffamasiya haqqında" qanun layihəsi qəbul olunarsa, cəzaların yüngülləşdirilməsi, özünü tənzimləmənin təklif olunmasına yol açacaq"*

"Diffamasiya haqqında" qanun layihəsinin bu ilin sonuna qədər parlamentdə müzakirə olunacağı gözlənir. Bunu Milli Məclisin deputatı Əflatun Amaşov Tiflisdə "Dəyişən şəraitdə KİV azadlığı və jurnalistlərin təhlükəsizliyinin möhkəmləndirilməsi" mövzusunda keçirilən XVI Cənubi Qafqaz media konfransında bildirib. Onun sözlərinə görə, qanun layihəsi Milli Məclisə təqdim olunub: "Media sahəsində vergi və digər istiqamətlər üzrə müxtəlif təşəbbüslər də var".

"Diffamasiya haqqında" qanun layihəsinin qəbul olunmasının əhəmiyyəti barəsində danışan Mətbuat Şurasının İdarə Heyətinin üzvü Azər Həsrət "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azərbaycan Avropa Şurasına qoşulandan sonra "Diffamasiya haqqında" qanun məsələsi aktuallaşdı: "Məlumdur ki, Azərbaycanın qanunvericilik aktlarının Avropa Şurasının standartlarına uyğunlaşdırılması ilə bağlı böyük proses həyata keçirildi. O proses çərçivəsində "Diffamasiya haqqında" qanunun qəbul olunması istəyi irəli sürüldü. Zamanla Azərbaycan tərəfi adıçəkilən qanunu müzakirə edib. Hələ ki, bununla bağlı hər hansı bir nəticə yoxdur. İlin sonuna qədər "Diffamasiya haqqında" qanun layihəsi qəbul olunarsa, cəzaların yüngülləşdirilməsi, özünü tənzimləmənin təklif olunmasına yol açacaq. Böhtan və bu tip qayda pozuntularına görə ciddi cəzaların nəzərdə tutulmamasına çağırılır. Adıçəkilən qanun qəbul olunarsa, o cür cəzalar nisbətən yüngülləşdiriləcək".

*"Böhtan və bu tip qayda pozuntularına görə ciddi cəzaların nəzərdə tutulmamasına çağırılır"*

**Həmsöhbətimiz hesab edir ki, Cinayət Məcəlləsinin 147, 148-ci maddəsində həbs nəzərdə tutulur. "Diffamasiya haqqında" qanun qəbul olunarsa, bu cəzalar nisbətən yüngül cəza ilə əvəz olunacaq.**

*Günel CƏLİLOVA*

---

Azərbaycanın sabiq təhsil naziri Firudin Cəlilovun ölkədə test üsulunun tətbiqinin tarixçəsi ilə bağlı verdiyi açıqlama ciddi qalmaqala yol açıb. F.Cəlilov bildirib ki, testin tətbiqi Elçibəy və Vurğun Əyyubun adı ilə deyil, onunla bağlıdır: "Mən Rəhim Hüseynovun vaxtında baş nazirin müavini işləyirdim. İnstitutlar, məktəblər mənim kurasiyamda idi.

# "Azərbaycana testi kim gətirib" qalmaqalı - Firudin Cəlilovun iddialı araşdırması aləmi qatdı...



***Məhərrəm Zülfüqarlı:** "Testin tətbiqi sırf Firudin Cəlilovun adı ilə bağlıdır"*

Mən də test imtahanlarını gətirmək istəyirdim, amma bu çox ağır bir məsələ idi. Sərəncam verdim, qəbul imtahanlarını dayandırdılar ki, testə keçək. Sərəncamımdan bir ay sonra Elçibəy hakimiyyətə gəldi. Ona dedim ki, bu artıq mənim səlahiyyətimdə olan bir iş deyil. Prezident sənsən, ya "hə" de, ya "yox". Razılıq vermədi. Orada bizim Elçibəylə möhkəm davamız oldu. Bu söhbətdə Pənah Hüseyn, İsa Qəmbər, Arif Hacılı, İxtiyar Şirin də iştirak edib. Amma 30 ildə birinin qeyrəti çatıb bu barədə danışmadı. Heç kim etiraf etmədi ki, test üsulunu təhsilə Vurğun yox, Firudin gətirib".

Maraqlı odur ki, F.Cəlilov bu fikirlərini Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının 1-ci sədri olmuş Vurğun Əyyub bu il sentyabrın 24-də dünyasını dəyişəndən sonra ilk dəfə səsləndirir.

Sabiq nazirin bu fikirlərinə reaksiya verən keçmiş baş nazir Pənah Hüseyn və Əbülfəz Elçibəyin köməkçisi olmuş Oqtay Qasımov sərt fikirlər səsləndiriblər. Onlar Cəlilovun dünyasını dəyişən Əbülfəz Elçibəy və Vurğun Əyyub haqqında danışmasını "etikadan kənar hərəkət" adlandıraraq, onu yaxın keçmişə aid məsələləri təhrif etməkdə suçlayıblar.

F.Cəlilov P.Hüseynlə O.Qasımovun ona ünvanladıqları ittihamlara cavab verərək, öz mövqeyində qaldığını bildirib: "Əvvələ onu deyim ki, mən heç vaxt rəhmətlik Vurğunun əleyhinə danışmamışam, əksinə, onu həmişə müdafiə etmişəm. Niyə? Çünki mən test imtahanını gətirdim və Vurğunu o vəzifəyə təyin etdirmək üçün çox adamla üz-göz oldum".

Bu məsələyə tam aydınlıq gətirmək üçün biz konkret tərəf olan siyasilərin deyil, sırf təhsil sahəsi üzrə ixtisaslaşmış müstəqil ekspertlərin fikrini öyrənmək qərarına gəldik. Testin tətbiqi Vurğun Əyyubun, yoxsa Firudin Cəlilovun adı ilə bağlıdır?

Təhsil eksperti, tarix elmləri doktoru, professor Məhərrəm Zülfüqarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, testin tətbiqi sırf F.Cəlilovun adı ilə bağlıdır: "Mənim hər iki şəxsə böyük hörmətim var. Allah Vurğun Əyyuba da rəhmət eləsin. İstənilən bir hərəkətin və böyük işin həyata keçirilməsində liderlər və onların davamçıları olur. F.Cəlilov həmin prosesin lideri olub. Bu açıqlamanı onun özü verməmeli idi. Haqqədalətin itməməsi baxımından həmin açıqlamanı kimsə başqa bir adam verib, F.Cəlilovun rolunu xüsusi vurğulamalı idi. Görür kimsə bunu dilə gətirmir, onun haqqı tapdanır, məcbur qalıb özü danışır. F.Cəlilov həmin zaman baş nazirin müavini və sonra təhsil naziri olubsa, deməli, proses onun adı ilə bağlı olmalıdır. Gəlin müqayisə edək. Hazırda təhsil nazirinin icazəsi olmadan kimsə təhsildə islahat apara bilərmi? Özü də söhbət fundamental islahatdan gedirsə. Məgər bu məntiq sizə çox şeyi demirmi? Bu proseslərdə iştirakı olan şəxslərdən biri kimi deyə bilərəm ki, bizdə çox vaxt bəzi siyasi partiyalar bütün detalları öz adlarına çıxmaq istəyirlər. Məsələn, 18 oktyabr 1991-ci il tarixi Azərbaycanın istiqlalının əldə etməsi ilə bağlı olan gündür. Həmin sənədi hüquqşünas Fuad Ağayev hazırlasa da, sonradan başqasının adına çıxdılar. Mən şəxsən bu mövzuda aparılan diskussiyalarda olmuşam. Elə ləyaqətli insanlar var ki, susurlar. Amma görəndə ki, heç kim əsl həqiqəti danışmaq istəmir, onda məcbur qalıb nə var deyirlər. Yaxşı olardı ki, bunu həmin proseslərdə olan insanlar desinlər. Onların çoxu həyatdadır. Birmənalı şəkildə deyə bilərəm ki, həmin proses sırf F.Cəlilovun adı ilə bağlıdır. Bunu danmaq haqsızlıq olar".

*"Vurğun Əyyubun təbliğ olunmaq imkanları daha çox oldu"*

Ekspert bu məsələdə V.Əyyubun adının hallanmasını belə izah etdi: "V.Əyyub ona nisbətdə bir qədər cavan olub. Vəzifədən gedəndən sonra da aktiv siyasətdə oldu. Müsavat başqanının birinci müavini idi. F.Cəlilov isə yaşlı olduğu üçün, uzun müddət proseslərdən kənarda qaldı. Bu baxımdan V.Əyyubun təbliğ olunmaq imkanları daha çox oldu. F.Cəlilov o vaxt bu məsələyə ciddi yanaşmayıb. Amma görür ki, yetişən gənc nəsil heç 90-cı illərdə olan siyasi liderləri belə tanımırsa, onun da haqqına girə bilərlər. Yəqin buna görə danışıb ki, tarix inkar olunmasın".

*Məhəmmədəli QƏRİBLİ*

# İranlı Abbas Lisaninin azərbaycanlı pərəstişkarı şairi ona bağlayan nədir?

## Fəzail İsmayıl: "Məni ona bağlayan çox şey var, bu həm də hər ikimizin əslən ərdəbilli olmağımızla bağlıdır"

**Cənubi Azərbaycanda ictimai-siyasi fəal olan, İranda azərbaycanlıların milli haqları uğrunda mübarizə aparan və bu fəaliyyətinə görə həbs edilən Abbas Lisaninin haqlarını müdafiə edən tanınmış həkim-şair Fəzail İsmayıl müxtəlif mətbuat orqanlarında A.Lisani ilə bağlı məqalələrlə çıxışlar edir. F.İsmayıl redaksiyamıza gələrək A.Lisanini müdafiə etməsinin səbəblərini açıqladı.**

**- Fəzail müəllim, siz Abbas Lisanini şəxsən tanıyırsınızmı?**

- Yerli mətbuatda davamlı olaraq Abbas Lisaninin azadlığa çıxması barədə yazıram, onu müdafiə edirəm. Xeyr, Abbas Lisanini şəxsən tanımıram, onunla heç bir şəxsi tanışlığım yoxdur. Ancaq onun bir milli fəal kimi fəaliyyətini həmişə izləmişəm, təqdir etmişəm. Ümumiyyətlə, Güney Azərbaycanda baş verən prosesləri, Azərbaycanın bütövlüyü uğrunda orada aparılan mübarizəni hər zaman yaxından izləmişəm.

**- Sizi Abbas Lisaniyə nə bağlayır?**

- Abbas Lisani ilə mənim aramdakı doğmalıq səbəbsiz deyil. Məni ona bağlayan çox şey var, bu həm də hər ikimizin əslən Ərdəbilli olmağımızla bağlıdır. Mənim ata və ana nəslim ərdəbillidir. Onlar Ərdəbildə yaşayıblar. 1662-ci ildə Şah Abbasın dövründə saray intriqaları nəticəsində Ərdəbildən köçərək Quzey Azərbaycana - Ağdamın Abdal Gülablı kəndinə, İbadulla xanın yanına gəliblər, onunla qohum olublar. Şah Abbas farsyönümlü siyasət yürütdüyü üçün ulu babam Böyükkişi xan onun siyasətinə etiraz edib. Çünki babam Böyükkişi xan I Təhmasibin baş veziri olub.

Abbas Lisaninin siyasi fəaliyyətində məni cəlb edən əsas amillərdən biri də onun yenilməzliyi, əyilməzliyidir. Onu heç bir təpki, həbs öz əqidəsindən döndərə bilmir, o heç vaxt mübarizəsindən geri çəkilmir. İranın dövlət konstitusiyasında biz türklərin bütün hüquqlarının müdafiə olunduğu, elm-təhsil hüquqları qorunduğu göstərilsə də, soydaşlarımız bunun əksini görürlər.

**- Deyirsiniz ki, Abbas Lisanini qazamata qədər aparan səbəb onun soydaşlarımızın haqqını tələb etməsidir və siz də buna görə onun azadlığa çıxmasını israr edirsiniz...**

- Bəli. O, 1967-ci il fevral ayının 18-də yoxsul bir ailədə doğulub. Özü də ata-ana tərəfdən tər-təmiz oğuz türküdür, xalqını da səmimi qəlbdən sevir, çox səbrli və çox böyük ədəb-əxlaq sahibidir. Ən gənc yaşlarından da öz məqalələri ilə Azərbaycan türklərinin ana dillərində təhsil almaq hüquqlarından məhrum edilməsi ilə bağlı çıxışlar edib.

**- Fəzail müəllim, siz Abbas Lisaninin pərəstişkarısınız. Bəs necə olub ki, bir dəfə də olsun onunla görüşməyə cəhd göstərməmisiniz?**

- Mən Təbrizə, Ərdəbilə gedəndə Abbas Lisani ilə də görüşmək istəmişəm, lakin görüşümüz alınmayıb. Maddi cəhətdən imkansızlıq onunla görüşümə mane olub. Abbas Lisani ilk dəfə milli fəal kimi 30 yaşında qeydə alınıb. 1997-ci ildən başlayaraq Bəzz-Babək qalasına yürüşlərdə iştirak edib və orada çox odlu-alovlu, kəskin çıxışlar edib. Həmin çıxışlarda da deyib ki, Bəzz qalası bizim cümhuriyyət qalamızdır. Yəni ki, biz heç vaxt Babəkimizdən dönə bilmərik, Babək Allahsız adam olmayıb. Abbas Lisaninin apardığı mübarizə sırf Cənubi Azərbaycandakı soydaşlarımızın əzilən haqlarının, milli hüquqlarının bərpasına nail olmaqla bağlıdır. Mən burada Mahmudəli Çöhrəqanlının apardığı siyasi mübarizə ilə Abbas Lisaninin apardığı siyasi mübarizəni eyniləşdirə bilmərəm, çünki onlar arasında fərqlər var. Çöhrəqanlının apardığı mübarizə, sadəcə, parlament səviyyəsində olan mübarizədir. Abbas Lisaninin isə siyasi mübarizəsinin mayasında, kökündə o tay, bu tay Azərbaycanın milli birliyinə nail olmaq, Ağa Məhəmməd Şah Qacardan sonrakı Azərbaycanın birləşdirilməsi durur. Abbas Lisani deyir ki, mən Vətənimdən, millətimdən getmirəm. Son dövrlər Güney Azərbaycandan dünyanın müxtəlif ölkələrinə xeyli sayda türk gedir. Abbas Lisani isə buna qarşıdır. O deyir ki, mən mübarizəmi burada aparıb, haqq uğrunda vətənimdə öləcəyəm. Abbas Lisani sonuncu dəfə həbs ediləndə ona 10 il həbs verdilər. Abbas Lisanini bir neçə dəfə həbs ediblər və məsləkdaşlarını, yaxınlarını yanına buraxmayanda aclıq edib. O, sonuncu dəfə 47 gün aclıq etdikdən sonra həbs olunub. Onun bacısı da, həyat yoldaşı da Abbas Lisanini müdafiə edirlər, onun yolu ilə gedirlər. Abbas Lisaninin həyat yoldaşı deyir ki, İran rejimi orta məktəblərdə türk dilinin fakültativ məşğələ kimi tədrisinə icazə verməklə gözə kül üfürür.

**- Fəzail müəllim, Abbas Lisaninin müdafiəsi ilə bağlı yazılarınız, şeirləriniz onun ailəsinə çatırmı, onların bundan xəbəri varmı?**

- Çox arzu edərdim ki, onların bundan xəbərləri olsun. Mən Abbas Lisaninin azadlığa çıxması üçün könülü olaraq bu işləri görürəm. Onun sönməz mübarizliyi onu gözlərimdə böyüdür. Bu gün onu təkcə mən müdafiə etmirəm, xaricdəki soydaşlarımız da müdafiə edirlər. Sosial şəbəkələrdə, internetdə onun azadlığa çıxması ilə bağlı çoxlu çağırış var. Abbas Lisanini yenilməzliyinə və dönməzliyinə görə yalnız dünya siyasətçiləri içində xüsusilə seçilmiş Nelson Mandela ilə müqayisə edə bilərəm.

*İradə SARIYEVA*





Xınna mahalı, Haça qaya ziyarətkahı. (İmam Əli ocağı) Fəzail İsmayıl Böyükkişi 17 avqust 2019

## "Mən Təbrizə, Ərdəbilə gedəndə Abbas Lisani ilə də görüşmək istəmişəm, lakin görüşümüz alınmayıb"

**Manatın yaxın gələcəkdəki taleyi hər bir vətəndaşı düşündürən əsas suallardan biridir. Azərbaycan Mərkəzi Bankı (AMB) 2017-ci ilin aprel ayından etibarən 1 ABŞ dollarının məzənnəsini 1.70 manat səviyyəsində sabitləyib. Artıq uzun müddətdir manat dollara qarşı 1.70 məzənnəsi ətrafında sabitlik nümayiş etdirir.**

# 2020-ci ildə manat-dollar nisbətinin 1.70 civarında saxlana biləcəyi barədə proqnozlar nə dərəcədə əsaslıdır...




***Ruslan Atakişiyev:*** *"Qarşıdakı illərdə dövlətin əsas siyasəti ondan ibarət olacaq ki, manatın məzənnəsi hazırkı səviyyədə sabit saxlansın"*

Xüsusən də son iki ildə neftin orta illik qiymətinin 60 dolların üzərində olması manatın sabit saxlanması üçün iqtisadi əsaslar yaratdı. Son illər cəmiyyətdə manatın sabitliyinə inam da xeyli artıb. Bu, müxtəlif formalarda özünü göstərir. Bütün bunlarla yanaşı, Mərkəzi Bank, Maliyyə Nazirliyi 2020-ci il üçün də manat-dolları məzənnəsinin 1.70 səviyyəsində olacağını proqnozlaşdırırlar. Maliyyə Nazirliyi bunu onunla əsaslandırır ki, tədiyyə və ticarət balanslarındakı müsbət dinamika, monetar və fiskal siyasətlərin sıx əlaqələndirilmiş şəkildə yürüdülməsi milli valyutanın mübadilə məzənnəsinin cari ildəki kimi sabit qalacağını dəstəkləyəcək.

O da məlumdur ki, zaman-zaman maliyyə bazarlarında müəyyən dalğalanmalar olur. Bütün bunlar da valyuta məzənnələrinə təsir edir. Bu baxımdan bütün bunları nəzərə alsaq, gələn il manat-dollar nisbətinin 1.70 civarında saxlana biləcəyi barədə proqnozlar nə dərəcədə realdır?

Sözügedən məsələni dəyərləndirən İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin direktoru Ruslan Atakişiyev buna bir neçə aspektdən yanaşır.

Onun fikrincə, qarşıdakı dövrdə manatın mövcud məzənnəsi saxlanacaq: "Qarşıdakı dövrdə manatı nəyin gözləməsi dövlət büdcəsinin təqdimatı ilə bağlı sənədlərdə öz əksini tapıb. 2020-2021-ci illərdə də dövlətin əsas siyasəti ondan ibarət olacaq ki, manatın məzənnəsi hazırkı səviyyədə sabit saxlansın. Yəni 1 dollar 1,7 manat səviyyəsində saxlansın. Bunun belə olması ona görə vacibdir ki, manatın məzənnəsinin qeyri-stabilliyi ölkəyə investisiya qoyulmasına, sahibkarlıq mühitinə mənfi təsir edir.

*"Bu gün beynəlxalq və regional səviyyədə manata təzyiqlər davam etməkdədir"*

Son dövrlər ölkə iqtisadiyyatında müsbət amillərin ortaya çıxması fonunda manatın dollara nisbətən möhkəmlənməsi üçün də imkanlar yaranır. Ancaq bu o demək deyil ki, manat bu gün özünün real qiymətini tam şəkildə tapıb. Məsələ ondadır ki, 2016-cı ildə qəbul olunan yol xəritələrində və digər sənədlərdə manatın "üzən məzənnə"yə keçirilməsilə bağlı siyasət önə çəkilsə də, bu məsələ iqtisadi reallıq nəzərə alınaraq dövlət tərəfindən tənzimlənmə yolu ilə həyata keçirilir. Bu gün beynəlxalq və regional səviyyədə manata təzyiqlər davam etməkdədir.

**Ancaq hesab edirəm ki, dövlət uzunmüddətli perspektivdə manatla dollar arasında mövcud məzənnənin qorunub saxlanmasında maraqlıdır. Çünki bu, ölkədə son dövrlər aparılan iqtisadi islahatların uğurla nəticələnməsinə təsir edən əsas amillərdən biridir. Belə olmasa, həyata keçirilən iqtisadi islahatlar gözlənilən nəticənin əldə olunmasında çətinliklər yarada bilər".**

***Vidadi ORDAHALLI***

---

**Bələdiyyələrlə sakinlər arasında vergi ödəməklə bağlı tez-tez mübahisələr yaranır. Görünən odur ki, hazırda bələdiyyələrin vergi toplamasında müəyyən anlaşılmazlıqlar mövcuddur. Bu sahədə yaranmış əsas problem bələdiyyələrin sənədsiz evlərə də vergi tələb etməsidir.**

# Bələdiyyələr "srokun" çıxmasına iki ay qalmış vergi məsələsində fəallaşıblar, xeyirdimi...



***Vüqar Bayramov:*** *"Problemin həlli qeydiyyatsız tikililərin qeydiyyata alınmasından keçir"*

Vəziyyət elə gətirib ki, əksər hallarda sənədi olmayan sakinlər də bələdiyyələrə torpaq və əmlak vergisini ödəmək məcburiyyətində qalırlar. Əks halda, sakinlər müxtəlif məhdudiyyətlərlə üz-üzə qalırlar. Məsələn, ərazi icra nümayəndəliyindən yaşayış yeri barədə arayış alan sakinə torpaq və əmlak vergisi ödəmədiyi halda arayış verilmir. Bu hallara paytaxtın müxtəlif rayonlarında, demək olar, ki, tez-tez rast gəlinir.

Düzdür, bələdiyyələr özünüidarəetmə təşkilatı olmaqla yanaşı, həm də özünümaliyyələşdirmə qurumudur. Bələdiyyələrin maliyyələşməsi fiziki şəxslərdən toplanan əmlak vergisi, mənfəət vergisi və sanatoriya, kurortlardan əldə etdiyi gəlir hesabına baş verir. O ki, qaldı bələdiyyələrin sakinlərdən tələb etdiyi torpaq və əmlak vergisinə, bu heç də sadalananların hamısına aid deyil. Torpağın hər 100 kvadratmertinə görə vətəndaşdan 60 qəpik vergi tələb olunur. Əmlak vergisi isə yalnız çıxarışı olan, sənədli evlərdən tələb olunur. Bələdiyyələr sənədsiz evlərdən, qanunsuz tikililərdən yalnız torpaqdan istifadə etdiyi üçün torpaq vergisi ala bilər. Evin sənədi yoxdursa, vətəndaşdan əmlak vergisi tələb edilə bilməz.

Ancaq məlum olur ki, bələdiyyələr buna heç də hər zaman əməl etmirlər. Bu nə dərəcədə doğrudur?

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Vüqar Bayramovun sözlərinə görə, bələdiyyələr yalnız dövlət qeydiyyatına alınmış əmlakdan vergi tələb etmək hüququna sahibdirlər: "Bu gün xeyli sayda dövlət qeydiyyatına alınmamış əmlak var. Çox təəssüf ki, bələdiyyələr dövlət qeydiyyatına alınmamış tikililərdən də müxtəlif yollarla əmlak vergisi tələb edirlər. Əmlak sahəsinə görə vergiyə cəlb olunur. Qeydiyyatı olmayan əmlakın sahəsinin nə qədər olması mübahisəli olduğundan və qeydiyyatı olmadığından, hüquqi baxımdan vergiyə cəlb olunması qeyri-mümkündür. Qeydiyyatsız evlərlə bağlı problem ondan ibarətdir ki, bu evlərin inventar dəyərini hesablamaq çətindir.

*"Belə olsa, o zaman bəzi bələdiyyələr qeydiyyatsız evlərdən qanunsuz olaraq əmlak vergisi tələb etməz"*

İnventar dəyərini hesablamaq çətin olduğuna görə, nəticə etibarilə, həmin evlərdən vəsaitin yığılmasını müəyyən etmək olmur. Ona görə də təklif edirik ki, qeydiyyatsız evlər qeydiyyata alınsın. Bu həm də həmin əmlakın vergiyə cəlb edilməsi baxımından vacibdir. Ona görə də problemin həlli qeydiyyatsız tikililərin qeydiyyata alınmasından keçir. Belə olsa, o zaman bəzi bələdiyyələr qeydiyyatsız evlərdən qanunsuz olaraq əmlak vergisi tələb etməz. O üzdən, qeydiyyatsız evlərin qeydiyyata alınması sürətləndirilməlidir".

***Vidadi ORDAHALLI***

# Universitetlərimizin bölgə filialları barədə "özlərini doğrultmurlar" iddiası...

***İlqar Orucov:*** *"...bu filiallar ali məktəblərdən səviyyəcə geri qalırlar"*

***Buludxan Xəlilov:*** *"Bizim universitetin Şəki, Ağcabədi, Şamaxı, Cəlilabad, Qubada filialları var, o filiallara nəzarət günü-gündən artır"*



**Ölkəmizin aparıcı ali məktəblərinin bir çoxunun Azərbaycanın müxtəlif şəhər və rayonlarında filialları fəaliyyət göstərir. Bu sırada Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universitetinin filiallarını qeyd edə bilərik. Çox zaman bölgələrdə fəaliyyət göstərən universitet filiallarının fəaliyyəti barədə neqativ fikirlərlə üzləşirik, onların özlərini doğrultmaması barədə iddialar səsləndirilir.**

Bəzi mütəxəssislər hesab edirlər ki, həmin filiallarda tədrisin keyfiyyəti elə də ürəkaçan deyil, burada çalışan müəllim kadrları tələbləri ödəyə bilmirlər.

Doğrudanmı ali məktəblərin bölgələrdə fəaliyyətdə olan filialları özünü doğrultmur, tələbləri ödəmirlər?

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında ictimai şuranın üzvü, fizika-riyaziyyat üzə fəlsəfə doktoru İlqar Orucov "Bakı-Xəbər"ə bildirdi ki, universitet filallarının fəaliyyətinin gündəmə gətirilməsi çox aktualdır. "Olduqca aktual məsələni gündəmə gətirmisiniz. Bu məsələ ilə bağlı mənim fikrim birmənalı deyil. Çünki Azərbaycan ərazi baxımdan böyük dövlət olmasa da, hər halda, təkcə paytaxtdan ibarət deyil, həm də bölgələri var. Azərbaycanda tarixən bölgələrdə mədəniyyət, elm-təhsil inkişaf edib. Hər bölgənin də bir mədəniyyət paytaxtı olub. Bu mədəniyyət mərkəzləri Azərbaycana xeyli sayda görkəmli insan bəxş edib. Regionların tərəqqisi baxımından burada ali təhsil müəssisələrini inkişaf etdirmək, hansında ki, yoxdur, orada da universitetlər yaratmaq olduqca faydalıdır. Bu baxımdan ki, həm o bölgələrin mədəni, intellektual səviyyəsi yüksəlir, həm də elm-təhsil inkişaf edir. Bilirsiniz ki, bölgələrdə müxtəlif ali məktəblərin filalları fəaliyyət göstərir. Bir sıra rayonlarda Azərbaycan Müəllimlər Universitetinin filialları mövcud idi. Quba, Şəki, Zaqatala, Cəlilabadda və digər rayonlarda fəaliyyət göstərən bu filiallar Azərbaycan Dövlət Pedaqaoji Universitetinin balansına verildi. Bütövlükdə, bu ali məktəb filialları bazasında dövlət universitetləri yaratmaq olar. Onların genişləndirilməsi, reytinqini, təhsilin səviyyəsini daha da yüksəltmək olduqca faydalıdır. Bölgələrdə fəaliyyət göstərən universitet filiallarının səviyyəsinin tələblərə cavab verib-verməməsi məsələsinə gəlincə, təəssüf ki, bu filiallar ali məktəblərdən səviyyəcə geri qalırlar. Bu, birmənalı olaraq, belədir. Bu özünü daha çox tələbə qəbulu zamanı göstərir. Faktdır ki, imtahanlarda daha az bal toplamış gənclərimiz regionlara üz tuturlar. O da sirr deyil ki, abituriyentlər az bal topladıqları zaman ehtiyat variant kimi ali məktəblərin bölgə filiallarını seçirlər. Təbii ki, istisnalar da var. Yüksək bal toplamış gənclər də bu filialları seçə bilirlər. Əlbəttə, o filialların fəaliyyəti genişləndirilsə, onlara diqqət daha da artsa, biz tamam əks effekti görə bilərik. Artıq Təhsil Nazirliyi 2019-2020-ci tədris ilində prioritet olaraq ali təhsilin həm keyfiyyətini, həm də səviyyəsini artırmağı planlaşdırır. Cənab nazirin də mövqeyi ondan ibarətdir ki, ali təhsil sahəsində ciddi dönüş olmalıdır, Azərbaycanda verilən ali təhsilin keyfiyyəti heç də indiki səviyyədə qaneedici ola bilməz".

İ.Orucov qeyd etdi ki, bu baxımdan bölgələrdə fəaliyyət göstərən ali məktəblərin və ali məktəb filiallarının da fəaliyyətində dönüşlər olacaq.

Azərbaycan Dövlət Pedaqaji Universitetinin kafedra müdiri, professor Buludxan Xəlilov isə hesab edir ki, universitetlərin bölgələrdə fəaliyyət göstərən filialları haqqında səsləndirilən iradlar həqiqəti əks etdirmir: "Son dövrlər universitetin ayrı-ayrı filiallarına qəbul olunan abituriyentlərin bal göstəriciləri yüksək olur. Məsələn, bu il bizim universitetin Şəki filialına daxil olan tələbələr arasında 600 bal toplayan da oldu. Bu gün universitetlərin bölgələrdə olan filiallarına ciddi nəzarət var. Bizim universitetin Şəki, Ağcabədi, Şamaxı, Cəlilabad, Qubada filialları var, o filiallara nəzarət günü-gündən artır. Əvvəla bu filialların direktorları universitetlərin elmi şuralarına cəlb olunurlar. Ayda bir neçə dəfə Azərbaycan Dövlət Pedaqoji Universitetindən o filiallara müxtəlif əməkdaşlar ezam olunur, onlar da oradakı tədris prosesinə nəzarət edirlər. Onlar həm müəllim-professor heyətinin işini izləyir, həm tələbələri, həm də dərsliklərin və proqramların vəziyyətini yoxlayırlar. Yəni bu işlər koordinasiya olunmuş şəkildə gedir. Elə bölgələr var ki, region olduğu üçün orada professor-müəllim heyətinin sayı azdır. Bu səbəbdən də bizim universitetin timsalında bir müsbət cəhət ondan ibarətdir ki, ayrı-ayrı bölgələrə nüfuzlu alimləri, mütəxəssisləri dərs demək üçün göndəririk. Həmin filialların maddi-texniki bazaları da müasir tələblərə cavab verir, kompyuter sistemi quraşdırılıb, auditoriyalar yüksək səviyyədədir, tələbələrin dərsə yanaşması çox yaxşıdır. Bütün göstəricilər tələblərə cavab verir, tələbə kontingenti də hazırlıqlıdır, oxumağa böyük maraq göstərirlər. O ki, qaldı dərslik, dərs vəsaitlərinə, onlar bununla təmin olunurlar, dərslər də vahid proqram əsasında tədris edilir. Bu istiqamətdə də çox ciddi koordinasiya var və filiallar arasında rəqabət də mövcuddur. Bu rəqabət də tədrisi, dərsi inkişafa yönəldir. Bu filialları əsasən o bölgələrə yaxın tələbələr seçirlər. Çox istərdim ki, regionların öz təbiətinə, coğrafiyasına uyğun ixtisaslar yaradılsın. İxtisaslar bir-birini təkrarlamasın".

B.Xəlilov hesab edir ki, bölgələrdə fəaliyyət göstərən ali məktəb filialları barədə yanlış düşünmək yolverilməzdir. O qeyd etdi ki, bölgələrdə dərs deyən müəllimlər universitetlərə gəlir, burada kafedraların təcrübəsini, yeniliklərini öyrənir və tətbiq edirlər.

B.Xəlilovun sözlərinə görə, bu gün universitet filiallarında da çox güclü müəllimlər çalışır.

Onun fikrincə, Azərbaycanda Türkiyə təcrübəsindən istifadə edərək ali məktəblərin özlərini bölgələrə keçirmək lazımdır, bu daha effektiv olardı. "O filialların özləri gələcəkdə müstəqil universitetlərə çevrilə biləcəklər. Onlar bununla Azərbaycanın müxtəlif bölgələrində ziyalılar, media orqanları formalaşdıracaqlar" - deyə B.Xəlilov vurğuladı.

***İradə SARIYEVA***

**Bu gün ictimai nəqliyyatdan istifadə şəxsi avtomobillə müqayisədə daha əlverişli olsa da, bu sahədə olan bir çox problem insanları narahat edir. Təbii ki, bu sıraya nəqliyyat vasitəsindən düzgün istifadə edilməməsi, həddindən artıq sıxlıq, sürücülərin qeyri-etik davranışları və s. daxildir. Sürücülərin sərnişinlərlə dolu olan avtobusda siqaret çəkməsi də ciddi narahatlığa və narazılığa səbəb olan problemlərdəndir.**

# Marşrut sürücüləri sükan arxasında siqaret çəkməyi hələ tərgitməyiblər



Məsələ ilə bağlı qadağa və qınaqlar olsa da, ancaq problem hələ də tam həllini tapmayıb. Sürücüyə siqaret çəkməsi ilə bağlı irad bildirən sərnişinlər bəzən təhqirlə, dava-dalaşla üzləşirlər.

Avtobusların, demək olar, əksəriyyətində "kamera çəkir" sözü yazılsa da, sistem quraşdırılmayıb. Bu səbəbdən də sürücülər nəzarətsiz qalıb, öz bildiklərini edir, telefonla danışır, siqaret çəkirlər.

Xatırladaq ki, Bakı Nəqliyyat Agentliyi bir müddət öncə sükan arxasında siqaret çəkən avtobus sürücüləri ilə bağlı maraqlı kampaniya başlatdı. Belə ki, vətəndaşlardan kimsə siqaret çəkən sürücünün foto və ya videosunu çəkib BNA-ya göndərərsə, ona hədiyyə veriləcək. Sərnişinlərin bir qismi ictimai qınaq formalaşdırmaq məqsədilə sürücülərin foto və ya videosunun çəkib BNA-ya göndərir.

Avtobus sürücülərinin sükan arxasında siqaret çəkməsinə münasibət bildirən Bakı Nəqliyyat Agentliyinin mətbuat katibi Mais Ağayev qeyd etdi ki, avtobusda olan hər bir sərnişin, bir növ, ictimai nəzarətçi rolunu oynayır: "Həyata keçirilən layihə əsasında 3 ay ərzində BNA-ya sərnişinlər tərəfindən 149 müraciət edilib və 55 sürücü barəsində inzibati tənbeh tədbiri görülüb. "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanun cənab Prezident tərəfindən təsdiq edildikdən sonra Bakı Nəqliyyat Agentliyi qanunun tələbinin icrası ilə bağlı müvafiq tədbirlərin görülməsinə başlayıb. İlk növbədə sərnişindaşıma fəaliyyəti göstərən daşıyıcılarla görüş keçirilib. Qanunun tələbinin icrası ilə bağlı onlara tapşırıq verilib. Bundan əlavə, sürücülərin sükan arxasında tütündən istifadəsinə qarşı aparılan mübarizə tədbirlərində vətəndaşların da iştirakını təmin etmək üçün xüsusi layihəyə start verilib. Fevral ayından start götürən bu layihə davam edir. Hər üç aydan bir rüblük olaraq layihənin nəticələri elan edilir. Layihə şərtlərinə əsasən, sərnişin sükan arxasında tütündən istifadə edən sürücü gördükdə onun foto və ya videogörüntüsünü qeydə alır. Daha sonra bu materialları, avtobusun nömrəsi və aid olduğu marşrut xətti barədə məlumatları bizə təqdim edir. Bunu sosial şəbəkə və elektron poçt ünvanı vasitəsilə edə bilərlər. Və bu materiallar əsasında da sürücüyə cərimə tətbiq edilir. Bunun özü çox vacib bir layihədir. Çünki artıq sürücülər bilirlər ki, avtobusda olan hər bir sərnişin, bir növ, ictimai nəzarətçi rolunu oynayır. Bu yaxınlarda ən son 3 ayın nəticələri elan edildi. Vətəndaşlarımız tərəfindən bizə 149 faktla

***Mais Ağayev:** "Sürücülərin sükan arxasında tütündən istifadəsinə qarşı aparılan mübarizə tədbirlərində vətəndaşların da iştirakını təmin etmək üçün xüsusi layihəyə start verilib"*

***Rasif Bağırov:** "Siqaret çəkmək, ilk növbədə, sürücünün diqqətini yayındıra, tüstü onun gözlərinin önünü tuta bilər"*

***İlqar Hüseynli:** "İctimai nəqliyyatda siqaret çəkilməsi qadağandır"*

bağlı müraciət daxil olub, ötən 3 ayda 55 sürücü barəsində inzibati tənbeh tədbiri görülüb. Onu da qeyd edim ki, 3 aylıq nəticələrə əsasən, fəallıq göstərən sərnişinləri BNA tərəfindən mükafatlandırılır".

Sosial sahə üzrə ekspert İlqar Hüseynli bildirdi ki, nəqliyyatda siqaret çəkilməsi qadağandır: "Ancaq fərdi avtomobillərlə bağlı belə bir qadağa yoxdur. Avropa ölkələrində isə hərəkətdə olduğu halda fərdi avtomobil sürücülərinə də siqaret çəkməyə icazə verilmir. Azərbaycanda ictimai nəqliyyatda qanun nə sürücüyə, nə də vətəndaşa siqaret çəkməyə icazə verir. Gəmidə, qatarda isə siqaret çəkmək üçün xüsusi yerlər olur. Taksilərdə isə siqaret çəkmək sürücü və sərnişinin qarşılıqlı razılaşması əsasında ola bilər. Avtobusda siqaret çəkməyin cəriməsi 40-50 manatdır".

Həkim-ekspert Rasif Bağırov bizimlə söhbətində qeyd etdi ki, siqaret çəkmək, ilk növbədə, sürücünün diqqətini yayındıra, tüstü onun gözlərinin önünü tuta bilər: "Siqaretin tüstüsü onu çəkəndən çox ətrafdakılara ziyan vura bilər. Sürücülər iddia edirlər ki, guya tüstü yanlarında olan pəncərədən bayıra çıxır. Amma belə deyil. İstər-istəməz, tüstü bütün salona yayılır. Əhalinin işdən çıxdığı vaxtlarda avtobusda sıxlıq o qədər olur ki, sürücünün ətrafı dolu olur. Onun çəkdiyi bir siqaret onlarla adama mənfi təsir göstərir. Siqaret tüstüsü qadınlara daha pis təsir edir. Tibbi nöqteyi-nəzərdən siqaret çəkən insan özü ilə bərabər bəlkə də daha çox ətrafındakılara zərər vurur. Yanmış tütün ciyərə çəkilib buraxıldıqdan sonra çıxan tüstü ətrafa daha çox ziyan vurur.

Bundan başqa, avtobusda daim siqaret çəkildə iy artıq oturur. İçəri daxil olanda xoşagəlməz qoxu olur, bu da sərnişinlərin üzərinə hopur. Onu da bildirim ki, sərnişinlərdən biri sürücüyə siqaret çəkməsi ilə bağlı irad tutanda bəzən qarşı tərəf onu təhqir edir. Bu problemi də ən çox cavan sürücülərdə müşahidə etmişəm. İşə 45-60 yaşlı təcrübəli sürücülər alınsa, daha yaxşı olar. Çünki onlar daha səbirlidir, insanlarla ünsiyyəti də yüksək səviyyədə olur. Xüsusilə Bakı kəndlərinə gedən avtobuslarda siqaret çəkmə halları daha çox olur. Yaxşı olar ki, insanları işə götürəndə hansı aralıqlarla siqaret çəkdiyi ilə bağlı sorğu aparılsın. Daha gec-gec siqaret çəkən insanları işə götürmək onların sonradan işdən çıxarılmasından daha yaxşıdır".

***Günel CƏLİLOVA***

**Azərbaycanda "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanun qüvvəyə mindikdən sonra tütündən istifadə (siqaret çəkmə) ilə bağlı çox ciddi məhdudiyyətlər yer alıb. Belə ki, təhsil və tərbiyə, səhiyyə və tibbi reabilitasiya müəssisələrində, habelə onların ərazilərində, restoran, kafe, barlar da daxil olmaqla, ictimai iaşə obyektlərində, piyada keçidlərində, sərnişin avtobuslarında və taksilərdə, liftlərdə, avtovağzallarda, dayanacaqlarda, yanacaqdoldurma məntəqələrində və digər yerlərdə siqaret çəkmək qadağan olunur.**

# Bu məbləğdə cərimələrdən sonra ictimai yerlərdə siqaret çəkməyə dəyərmi...

***Eyyub Hüseynov:** "İctimai yerlərdə siqaret çəkilməsinə, siqareti hara gəldi atanlara qarşı cərimə məbləğinin yüksək olması təqdirəlayiqdir"*



Lakin qadağaya heç də əməl olunmur. İctimai yerlərdə yenə də siqaret çəkilir, bununla yanaşı, siqaret istifadəçiləri həmin nəsnənin kötüyünü zibil qabına deyil, şəhərin istənilən yerinə atırlar.

Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi tərəfindən "Tütün məmulatlarından istifadənin məhdudlaşdırılması haqqında" Qanunun tələblərindən irəli gələn vəzifələrin icrası diqqət mərkəzində saxlanır, tütün tüstüsünün ətraf mühitə ziyanlı təsirinin azaldılması məqsədilə bir sıra məqsədyönlü tədbirlər həyata keçirilir. Keçirilən tədbirlər zamanı, ümumilikdə, 2019-cu ilin 9 ayı ərzində respublikanın şəhər, rayon polis orqanları tərəfindən keçirilmiş tədbirlər nəticəsində "Tütün məmulatlarından istifadənin məhdudlaşdırılması haqqında" Qanunla qadağan edilmiş yerlərdə tütün çəkdiklərinə, tütün məmulatları tullantılarını ətraf mühitə atdıqlarına görə 1923, tütün məmulatlarını yektinlik yaşına çatmayanlara satdıqlarına görə 224 şəxs İnzibati Xətalar Məcəlləsinin 212.1-ci, 212.4-cü və 455.2-ci maddələrinə əsasən inzibati məsuliyyətə cəlb olunub, onlara tətbiq edilmiş cərimələr 79.550 manat təşkil edib.

İctimai yerlərdə siqaret istifadə edənlərin, həmçinin, tütün məmulatını ətrafa tökənlərin cərimələnməsini ekspertlər müsbət qarşılayırlar.

Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov bildirdi ki, ictimai yerlərdə tütün məmulatlarından istifadənin qadağan edilməsinin məqsədi əhalinin sağlamlığının qorunması, sağlam həyat tərzinin təbliği, eyni zamanda, uşaqların və gənclərin sağlam böyüməsinə nail olmaqdır: "Qanun tütün məmulatlarından istifadəni və tütün tüstüsünün ətraf mühitə ziyanlı təsirlərini azaltmaq üçün hüquqi əsasları müəyyən edir. Ölkəmizdə qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiya da qəbul edilib. Həmin sənədə əsasən, yaxın 10 ildə siqaretdən istifadə 10 faiz azaldılmalıdır".

*"...yaxın 10 ildə siqaretdən istifadə 10 faiz azaldılmalıdır"*

AİB sədrinin sözlərinə görə, qadağan edilən yerlərdə tütün məmulatlarından istifadənin qarşısını almaq üçün, ilk növbədə, əhali fəal olmalıdır: "Əhali arasında maarifçilik səviyyəsi aşağıdır, siqaretdən istifadə edənlər qadağan olunan yerlərdə çəkməyə davam edir, siqareti harda gəldi yerə atırlar. Bu kimi əməllərin qarşısının alınması üçün cəza tədbirləri gücləndirilməlidir. İctimai yerlərdə siqaret çəkilməsinə, siqaretin hara gəldi atanlara qarşı cərimə məbləğinin yüksək olması təqdirəlayiqdir. Belə olarsa, istifadəçilər harda gəldi siqaret çəkməzlər".

***Günel CƏLİLOVA***

№ 182 (4080) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

11 OKTYABR 2019-cu il

www.baki-xeber.com

## Elan

Şəki rayonu, Suçma kənd sakini Əhmədova Qüdrət Bayram qızının adına verilmiş (pay torpaq ) JN-026F seriyalı torpağın mülkiyyətə verilməsinə dair dövlət aktı itdiyindən etibarsız sayılır.

Şəki şəhər sakini Cəbrayılov Şahin Vahid oğlunun adına verilmiş hərbi bilet itdiyindən etibarsız hesab edilir.

İsmayılov Fərmayıl Məhəmməd oğluna məxsus, 13 avqust 2015-ci il tarixli, 1415010584 qeydiyyat nömrəli torpağa mülkiyyət hüququna dair çıxarış itirildiyi üçün etibarsız sayılır.

Mehtiyeva Lalə Hafiz qızının adına, Bakı şəhəri, Yasamal rayonu, Ələsgər Ələkbərov küçəsi, ev 24 ünvanının çıxarışı (seriya RX №0908822), texniki pasportu, doğum haqqında şəhadətnamə və notarius tərəfindən verilmiş vərəsəlik haqqında sənədlər itdiyi üçün etibarsız sayılır.

Cabbarov Şükür Cəmil oğluna Müdafiə Nazirliyi tərəfindən verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

Əlizadə Nurlan Mübariz oğluna Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Quliyev Aqil Vahid oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Məhəmmədi Günel Oleqovnaya məxsus, Bakı şəhəri, Xətai rayonu, Afiyəddin Cəlilov küçəsi, ev 27 A, mənzil 370 (Yeni qaydalarla: Bakı şəhəri, Xətai rayonu, Firuz Qəmbərov küçəsi 78 M7 m4) ünvanına verilmiş çıxarış (seriya RX №1398567) itdiyi üçün etibarsız sayılır.

Abbasov Tacəddin Elyas oğlunun adına, Sabunçu rayonu, Ləhiş bağlar massivində yerləşən 4115a saylı torpağa verilmiş çıxarış və digər sənədlər itdiyi üçün etibarsız sayılır.

Abbasov Səlim Rasim oğluna məxsus, Bakı şəhəri, Nərimanov rayonu, Xan Şuşinski küçəsi 53, 1-ci mərtəbəsində yerləşən "Sarvan" MTK tərəfindən verilmiş obyektin (qeyri-yaşayış sahəsinin) çıxarışı və texniki pasportu (yeni ünvan: Xan Şuşinski 93-101) itdiyi üçün etibarsız sayılır.

Yusubov Aydın Həmid oğlunun adına məxsus, Bakı şəhəri, Binəqədi rayonu, M.Ə.Rəsulzadə qəsəbəsi, 12-ci sıra, ev 42 ünvanının qeydiyyat vəsiqəsi (seriya FM №036873) itdiyi üçün etibarsız sayılır.

Hüseynov Cümşüd Məsim oğluna məxsus, Bakı şəhəri, Nəsimi rayonu, 20 Yanvar küçəsi, ev 21 B, mənzil 26 ünvanına verilmiş qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Həsənova Şəfiqə Məmmədli qızının adına, Abşeron rayonu, Saray qəsəbəsi, Üzümlük massivində yerləşən torpaq sahəsinə verilmiş dövlət aktı №1642 itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası DT və AK Abşeron DTİ VƏ MHQ İdarəsi tərəfindən Bakı şəhəri, Sabunçu rayonu, Bilgəh qəsəbəsi, Salahzadə küçəsi ev № 4,5,7,11,14,15 ünvanında yerləşən 6 ədəd yaşayış evinin sahibi Əhmədov Fərəc Teymur oğluna məxsus qeydiyyat vəsiqəsi (çıxarış) və inventar №322,321,324,328,330,331 olan, qeydiyyat №24063, 24062, №24065, 24069, 24071, 24072 fərdi yaşayış evinin texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası DT və XK Bakı şəhər şöbəsi tərəfindən Sabunçu rayonu, Bilgəh qəsəbəsində fərdi bağçılıq və bağ evi tikintisi üçün 2,50 ha torpaq sahəsinin Əhmədov Fərəc Teymur oğlunun mülkiyyətinə verilməsinə dair JN-9306H kod 00501016 olan "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyi üçün etibarsız sayılır.

## "Azercell"in mobil klinikalarında 10 000-dən çox insan müayinə edilib

**Hər il oktyabr ayının ikinci cümə axşamı "Ümumdünya Görmə Günü" kimi qeyd olunur. Bu günün təqvimdə xüsusi yer almasında məqsəd görmə zəifliyi və gözdən əlilliklə bağlı bir çox vacib məsələlərə ictimaiyyətin diqqətini cəlb etməkdir.**

"Azercell Telekom" MMC öz fəaliyyətində sosial layihələrə xüsusi yer ayıran, hər zaman maraqlı təşəbbüslərlə çıxış edən bir şirkət kimi tanınır. "Azercell" tərəfindən 2011-ci il, iyun ayının 1-də, "Uşaqların Beynəlxalq Müdafiəsi Günü"ndə yaradılan "Mobil Göz Klinikası" şirkətin sosial əhəmiyyətli layihələri sırasındadır. Klinika valideyn himayəsindən məhrum uşaqlarda göz xəstəliklərinin müayinəsinin təşkilini və profilaktikasının aparılmasını həyata keçirmək məqsədilə fəaliyyətə başlasa da, aztəminatlı ailələrə, yaşlılara, qaçqın və məcburi köçkünlərə də yardım göstərir. Uşaq evlərində stomatoloji kabinetin olmamasını nəzərə alan "Azercell", 2009-cu ildə yaratdığı "Mobil Diş Klinikası"nı ən müasir tibbi avadanlıqla təchiz edib. Hər iki klinika fəaliyyətləri boyunca 10 000-dən çox insanı müayinədən keçirib.

Xatırladaq ki, fəaliyyətinin yeni rəqəmsal dövrünə qədəm qoyan və texnoloji aləmin ən son trendlərini abunəçiləri üçün daha da əlçatan edən "Azercell Telekom" MMC cari ilin iyul-avqust ayları ərzində respublikamızın 30-a yaxın bölgəsində səfərdə olub. Layihəyə qoşulan "Azercell"in "Mobil Göz" və "Mobil Diş" klinikaları bu müddət ərzində 350-dən çox insana ödənişsiz tibbi yardım göstərib.

Məlumat üçün bildirək ki, bütün müayinə və müalicə tədbirləri "Azercell"in dəstəyi ilə "Xəzər Qayğıkeşlik Layihəsi" İctimai Birliyi tərəfindən həyata keçirilir.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## "Nar" İT sahəsində fərqlənən tələbələrə dəstək oldu

**Ölkədə elm və təhsilin inkişafına, xüsusən də informasiya texnologiyaları sahəsində ixtisaslı kadrların yetişdirilməsinə önəm verən "Nar", "ADA" Universiteti ilə əməkdaşlığını davam etdirir. Bu dəfə mobil operatorakademik göstəricilərinə görə fərqlənən tələbələrə təqaüdlər verib. Oktyabrın 10-da"ADA"-da keçirilən "Akademik Mükəmməllik Günü"ndə Universitetin İnformasiya Texnologiyaları və Mühəndislik fakültəsinin tələbələri üçün nəzərdə tutulan "Lütfi Zadə" adına təqaüdü qazananların adları açıqlanıb. Qeyd edək ki, tələbələr növbəti semestrin təhsil haqqına 100% güzəşt əldə edirlər.**

"Nar" və "ADA" Universiteti arasında uzunmüddətli əməkdaşlıq çərçivəsində nəzərdə tutulmuş layihələr arasında "ADA" Universiteti Fondu ilə əməkdaşlıq, Universitetin tələbə və məzunları üçün karyera və staj imkanlarının təklif edilməsi, ADA ixtisasartırma proqramlarına "Nar" əməkdaşlarının cəlb edilməsi də mövcuddur.

Ölkənin ən gənc mobil operatoru "Nar"ın elm və təhsilin inkişafına yönəlik sosial layihələri haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,6%-ni əhatə edir və 8000-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub.





**Qoç** - Aktual məsələlərin həlli, peşəkar fəaliyyət və maliyyə sahəsində yaranmış problemlərin aradan qaldırılması üçün günün ilk yarısı ən optimal zamandır. Axşam saatlarınızı yaxınlarınızla birlikdə, mənalı istirahətə üstünlük verərək keçirin.



**Buğa** - Sağlam həyat tərzini seçin. Xarici görkəminizdə və ümumiyyətlə, yaşamınızda nəyi dəyişəcəyinizə qərar verin. Faal olun, intensiv fəaliyyət göstərin. Ötənlərdə özünü doğrultmuş üsulları seçin.



**Əkizlər** - İşgüzar təmaslarda diqqətli olun. Başqalarının məsləhətləri ilə davranaraq maraqlarınızı qurban verməyin. Ən müxtəlif yaşda və sosial durumda olan insanlarla dil tapmağa çalışın.



**Xərçəng** - Səhər saatlarında vurnuxma, işlərin sürətli artımı istisna deyil. Anlaşılmazlıqlar və mübahisələrə haqsızlığa rəvac verməyin. Ədalətli olun. Emosional durumlarda soyuqqanlı davranın.



**Şir** - Təşəbbüskar olun. Bədxahları pərişan etməyin ən rahat yolu onların dedi-qodularına, şayiələrinə fikir verməməkdir. Özünüzü, maraqlarınızı düşünün. Yoxsul yox, varlı olmağa can atın.



**Qız** - Ətrafınızdakı situasiyanı tam anlamasanız da, tələsik qərarlar verməyə tələsməyin. Situasiyadan asılı davranmayın. Hərəkətləriniz xaotik, qarışıq, ziddiyyətli olmasın. Optimal strategiyanı düşünün, işlək taktika seçin.



**Tərəzi** - Hiperaktivlik etməyin, məzmununa bələd olmadığınız işlə bağlı təşəbbüsə qapılmayın. Məlumatlar toplayın, müşahidə edin, deyilənlərə qulaq asın. Müzakirələr və toplantılar üçün yaxşı zamandır.



**Əqrəb** - Yaşananların məzmununu anlamağa çalışın. Onsuz da gərgin olan əlaqələri ağırlaşdırmayın. Yeni ideyaları reallaşdırmağa tələsməyin. Olaylarda yeni mərhələ, dönüş anı yaxınlaşır.



**Oxatan** - Günün ilk yarısında cəhdləriniz ən yaxşı səmərə verəcək. Bu və ya digər məsələnin çözüm sürəti zəhmətkeşliyinizdən, inadınızdan asılıdır. Sizdən asılı olmayan amillərlə təmayülləri də unutmayın.



**Oğlaq** - Günün ilk yarısından etibarən aktiv çalışın. Rəqiblərdən geri qalmayın. Qarşınıza qoyduğunuz məqsədə doğru qətiyyətlə irəliləyin. Tamamilə yeni sahədə tapşırıqlar və sifarişlər ala bilərsiniz.



**Dolça** - Maddi məsələlərlə bağlı müəyyən problemlər yarana bilər. Çevik və sayıq davranın. Maddi sahədə yeniliklər istisna deyil. Şübhəli davranmayın. Yanlışlıqlar sizə ağrılı problemlər vəd etmir.



**Balıqlar** - Maraqlandığınız işlərlə səhər saatlarından məşğul ola bilərsiniz. Diqqətli və sayıq olun. Karyera müstəvisində uğurlar istisna deyil. Yaradıcılıqla bağlı planlarınıza dəyişiklikər də mümkündür.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Digər dronları məhv edən pilotsuz uçan aparat təqdim edildi

**ABŞ-ın "Anduril" startapı digər dronların məhvi üçün nəzərdə tutulan "Interceptor" pilotsuz uçan aparatını nümayiş etdirib.**

"İctnews.az" bildirir ki, "Interceptor" müəyyən bina və ya obyekt, məsələn, hərbi baza və ya həbsxana ətrafında hava məkanına nəzarət edən kiçik kvadrokopterdir. Xüsusi kompüter görmə sistemi vasitəsilə dron digər pilotsuz uçan aparatların havada görünməsini izləyir. Qayda-qanunu pozan aparat aşkarlanan zaman "Interceptor" operatordan hücum üçün icazə aldıqdan sonra tarana gedir. Bildirilir ki, bu, "Anduril" startapının kəşf etdiyi ilk texnologiya deyil. Belə ki, müdafiə texnologiyaları sahəsində ixtisaslaşan startap bir müddət əvvəl ABŞ və Meksika sərhədini qanunsuz keçən miqrantların aşkarlanması üçün nəzərdə tutulan "Lattice" kompüter görmə sistemini təqdim edib. Hazırda sistem bir neçə ABŞ idarələri tərəfindən istifadə olunur.

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.